AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

5 MAY 2019-cu il BAZAR № 98 (6425) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci, 16-cı və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220, 222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960; 2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767; 2017, N 6, maddələr 1031, 1048, N 12 (I kitab), maddələr 2187, 2189; 2018, N 1, maddə 13, N 6, maddə 1155, N 7 (I kitab), maddələr 1380, 1408, N 12 (I kitab), maddə 2532; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1418-VQD Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 122-ci maddənin 1-ci və 3-cü hissələrinə hər iki halda ismin müvafiq hallarında "doktorantura" sözündən sonra ismin müvafiq hallarında "(adyunktura)" sözü əlavə edilsin;

1.2. 130-cu maddənin birinci hissəsinin "f" bəndinə "doktoranturada" sözündən sonra "(adyunkturada)" sözü əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (I kitab), maddə 583; 2001, N 7, maddə 454, N 9, maddə 576, N 12, maddə 734; 2002, N 5, maddə 249, N 12, maddə 707; 2003, N 8, maddə 425, N 12 (I kitab), maddə 671; 2004, N 1, maddə 1, N 11, maddə 887, N 12, maddə 980; 2005, N 2, maddə 61, N 8, maddə 688, N 12, maddə 1081; 2006, N 12, maddələr 1005, 1026; 2007, N 1, maddə 4, N 6, maddə 597, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1192; 2008, N 7, maddə 602, N 11, maddə 960; 2009, N 7, maddə 506; 2011, N 1, maddə 14, N 7, maddələr 588, 603, N 12, maddə 1115; 2012, N 6, maddələr 500, 513, N 7, maddə 652, N 9, maddə 841, N 12, maddə 1226; 2013, N 2, maddə 91, N 4, maddə 366, N 11, maddə 1278, N 12, maddələr 1483, 1486, 1495; 2014, N 2, maddələr 94, 98, N 6, maddə 608, N 7, maddə 770, N 8, maddə 957, N 10, maddə 1158, N 12, maddə 1525; 2015, N 1, maddə 11, N 12, maddə 1433; 2016, N 2 (I kitab), maddə 207, N 3, maddələr 396, 402, N 5, maddə 848, N 6, maddələr 973, 974, 1015, N 7, maddə 1245, N 10, maddə 1603, N 11, maddələr 1752, 1792, 1793, N 12, maddələr 2001, 2037, 2046; 2017, N 2, maddə 146, N 5, maddələr 695, 723, 737, N 6, maddə 1055, N 7, maddə 1304, N 8, maddə 1509, N 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, N 2, maddə 149, N 5, maddə 863, N 6, maddə 1193, N 7 (I kitab), maddələr 1414, 1427, N 10, maddə 1962, N 11, maddələr 2186, 2210, N 12 (I kitab), maddələr 2498, 2509; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1413-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 106.1.15-ci maddədə "körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının" sözləri "məktəbəqədər təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

2.2. 219.8-ci maddədə "Körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları" sözləri "Məktəbəqədər təhsil müəssisələri" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1168, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli, 28 dekabr tarixli 1406-VQD, 1427-VQD nömrəli qanunları və 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli, 19 fevral tarixli 1516-VQD nömrəli qanunları) 599-cu maddəsinin adında və mətnində "dövlət elektron məlumat sisteminə" sözləri ", ümumi təhsil və peşə təhsili müəssisələrinin "Şagird-məzun dövlət elektron məlumat sistemlərinə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 aprel 2019-cu il.**

# Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir



**Böyük və güclü şəxsiyyətlərin dünyagörüşü, uzaqgörənliyi, həyat təcrübəsi, analitik düşüncə tərzi və siyasi iradəsi hər hansı bir ölkənin inkişaf strategiyasının xüsusiyyətlərini müəyyənləşdirməklə həlledici məqamlarda gələcək üçün düzgün yol seçimini formalaşdırır. Ümummilli lider Heydər Əliyev xalqımızın nadir şəxsiyyətlərindən biri olaraq milyonların qəlbində yaşayır. Həyatının mənasını xalqa və dövlətə xidmətdə görən ulu öndər bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi kimi daim böyük ehtiramla, rəğbətlə xatırlanır. Heydər Əliyev həyatını istisnasız olaraq Azərbaycana həsr etmişdi! Onun böyüklüyünü illər keçdikcə daha dərindən dərk edirik.**

Azərbaycan xalqı fəxr edə bilər ki, onun XX əsrin son 30 ilinə və XXI əsrin əvvəlinə təsadüf edən tarixi dahi şəxsiyyət Heydər Əliyevin adı və yaratdığı ideyalarla birbaşa bağlıdır. Bu mənada Azərbaycanın yeni və ən yeni tarixi böyük siyasətçi Heydər Əliyevin müəllifliyi ilə yaranıb. Ulu öndər dövlət idarəçiliyinin hər bir mərhələsində vətəninə, xalqına sonsuz məhəbbət və sədaqət hissi ilə yanaşıb, milli ideallara daxilən bağlı olub. Azərbaycanın ən məşhur isimlərinin malik olduğu ali keyfiyyətlər küll halında Heydər Əliyev dühasının kamil şəxsiyyətində təcəssümünü tapır. Ümummilli lider unikal bir siyasi məktəbin, mükəmməl dövlətçilik və idarəçilik sisteminin banisi, milli inkişafı şərtləndirən ideoloji-siyasi irsin müəllifi kimi əbədiyaşarlıq qazanıb.

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə irəli çəkilməsi onu deməyə tam əsas verir ki, bu böyük dövlət xadiminin hakimiyyətə gəlişi mühüm tarixi zərurətdən doğub. Heç də təsadüfi deyil ki, bu illər tariximizin Heydər Əliyev dövrü adlandırılır. Bu, millətin gələcək liderinin qarşıdakı bir çox illər üçün xalqın etimadını qazanmaq yolunda ilk addımı idi. Heydər Əliyev 14 il Azərbaycan KP MK-nın birinci katibi oldu. Bu vəzifədə onun yüksək təşkilatçılıq bacarığı, islahatçı dövlət xadimi kimi istedadı özünün parlaq təcəssümünü tapdı.

1982-ci ildə Siyasi Büroya üzv seçilərək SSRİ-ni idarə edən vəzifəli şəxslərdən biri olarkən bu dahi siyasətçinin potensialı daha geniş miqyasda üzə çıxdı. Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsi Azərbaycanı dünyaya tanıtdırmaq üçün əlavə imkanlar demək idi və o, vətənini, xalqını dərindən sevən insan kimi, yaranmış imkanlardan maksimum istifadə etməyi bacarırdı. Heydər Əliyevin Siyasi Büro üzvü seçilməsi və ittifaq rəhbərliyində yüksək vəzifə tutması mühüm siyasi hadisə və xalqımız üçün böyük iftixar və qürur mənbəyi idi. Azərbaycan xalqının milli özünüifadəsi və inkişafı faktının təsdiqi idi. Heydər Əliyev Sovet İttifaqının rəhbərləri arasında öz erudisiyası və qabiliyyətləri ilə seçilirdi. Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı şəxsiyyət, sözün əsl mənasında şəksiz lider idi.

Sovet dövlətinin görkəmli rəhbərlərindən biri kimi Heydər Əliyev ona tapşırılmış məsul sahələrin öhdəsindən bacarıqla gəlirdi. İşinin həddən ziyadə çox olmasına baxmayaraq, o, doğma Azərbaycanın problemlərilə də maraqlanmağa imkan tapırdı. Özünün yorulmaz fəaliyyəti, böyük iş qabiliyyəti ilə Heydər Əliyev nəinki Azərbaycan xalqının dərin məhəbbət və hörmətini qazanmış, İttifaqda yaşayan bütün xalqların da xatirəsində xoş izlər buraxmışdır.

Dünyaya xüsusi missiya ilə gələnlər qeyri-adi iş bacarıqları, möhkəm iradələri, uzaqgörənlikləri, xeyirxahlığı, ədalətli olmaları ilə insanların diqqətini cəlb edirlər. Tarix dəfələrlə sübut edib ki, belə şəxsiyyətlər mümkün olan hər şeyi edə bilib, bir insan ömrünə sığmayan böyük işlər görüblər. Ümummilli liderimiz Heydər Əliyev belə şəxsiyyətlərdən idi. Müstəqil dövlət qurmaq xoşbəxtliyi yalnız öz içərisində güclü şəxsiyyət, qüdrətli lider yetişdirmiş xalqlara nəsib olur. Bu tarixin sınağından çıxmış gerçəklikdir. Xalqı vahid milli ideya ətrafında birləşdirməyi bacaran lider onu öz müqəddəs arzularına qovuşdurmağa qadirdir. Heydər Əliyev məhz belə bir nadir şəxsiyyət və alternativsiz milli lider kimi XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdi. Azərbaycanı bəlalardan qorudu, onun suverenliyini qoruyub saxlaya bildi. Gürcüstanın sabiq və mərhum prezidenti Eduard Şevardnadze deyirdi: "XX əsr liderlər əsridir. Əsrin lideri Heydər Əliyevdir".

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son otuz ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin — Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətində, həm də fəlsəfi məfkurəsində - milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır. Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi layihələr artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Ulu öndər Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır. Çox illər keçəcək və gələcək nəsillər bu günümüzün şanlı dövlətçilik tarixini vərəqləyəcəklər. O zaman 1969-cu ildən etibarən 40 ilə yaxın müddətdə Azərbaycana rəhbərlik etmiş təcrübəli dövlət xadimi, mahir siyasətçi, qətiyyətli komandan Heydər Əliyevin Azərbaycan xalqı və onun dövlətçiliyi üçün nə qədər böyük işlər gördüyünü bir daha təsdiqləyəcəklər.

Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi qısa zamanda Azərbaycanın tərəqqi və inkişafında yeni səhifə açdı. Zəngin təbii sərvətlərinə, iqtisadi və insan potensialına baxmayaraq, digər müttəfiq respublikalardan geridə qalan Azərbaycan o illərdə sürətlə inkişaf etməyə başladı. Şəhərlər, rayonlar, hətta kəndlər böyük tikinti meydanına çevrildi. Yeni istehsal və sənaye müəssisələri yaradıldı. İnsanların sosial təminatı, mədəni-intellektual səviyyəsi yüksəldi. Ümummilli liderin təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olundu. Bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsasları təmin edildi.

XX əsrin sonlarına yaxın dövlət müstəqilliyini əldə etmiş Azərbaycan xalqı məhz ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında milli varlıq və idrakının, özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət ideyasını gerçəkləşdirmişdir. Ulu öndərimizin mənalı və şərəfli ömür yolunun hər bir parlaq səhifəsi xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edir. Azərbaycanın son 40 illik tarixinin elə bir mərhələsi yoxdur ki, orada bu fenomenal şəxsiyyətin nəhəng işləri öz əksini tapmasın.

**(davamı 2-ci səhifədə)**

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1562-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1562-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 2 may 2019-cu il.**

# Braziliya Milli Konqresi Deputatlar Palatasının sədri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





**Azərbaycanda səfərdə olan Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyəti mayın 4-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən nümayəndə heyətinə Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

AZƏRTAC

*Rodriqo Maya:*

# Braziliya Azərbaycanla əlaqələri daha da dərinləşdirmək niyyətindədir



**Mayın 4-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Rodriqo Mayanı təkrarən Braziliya Milli Konqresi Deputatlar Palatasının sədri seçilməsi münasibətilə təbrik edib. Rodriqo Mayanın Azərbaycana ikinci dəfə rəsmi səfər etdiyini xatırladan Milli Məclisin sədri qeyd edib ki, bu, parlamentlərarası münasibətlərimizin nə qədər yüksək səviyyədə olduğunu sübut edir. Azərbaycan Braziliya ilə əlaqələrin hərtərəfli inkişafında çox maraqlıdır. Azərbaycan və Braziliya arasında ticarət dövriyyəsi 171 milyon dollardır. Bu rəqəm iki ölkənin iqtisadi potensialına uyğun deyil. Biz iqtisadi əlaqələrimizi daha da inkişaf etdirə bilərik.

Görüşdə Milli Məclisin sədri Braziliyada neft yataqlarının aşkarlanmasında da Azərbaycan neftçisi Eyyub Tağıyevin xidmətlərini qeyd edib, ölkələrimiz arasında həmişə dostluq münasibətlərinin olduğunu diqqətə çatdırıb. Oqtay Əsədov mədəni-humanitar sahədə əlaqələrimizin dərinləşməsi istiqamətində atılan addımları təqdir edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söz açan sədr Braziliyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə, problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həlli üçün tutduğu mövqeyə görə minnətdarlığını bildirib.

Rodriqo Maya ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. Bildirib ki, parlamentlər səviyyəsində əlaqələrin dərinləşməsi digər sahələrə də öz müsbət təsirini göstərir. Braziliya energetika və kənd təsərrüfatı sahəsində ölkəmizlə daha sıx əməkdaşlıq etmək niyyətindədir. Bu məqsədlə gələcəkdə qarşılıqlı səfərlərin təşkil olunması, birgə layihələrin həyata keçirilməsi ümumi məqsədlərə xidmət edərdi.

Qonaq Braziliyanın Azərbaycana böyük maraq göstərdiyini və gələcəkdə əlaqələri daha da dərinləşdirmək niyyətində olduğunu söyləyib. Bildirilib ki, təkcə siyasi, iqtisadi deyil, mədəni-humanitar sahələrdə də əməkdaşlığın dərinləşməsi üçün geniş imkanlar var.

Rodriqo Maya qeyd edib ki, Braziliya sülh ölkəsidir və dünyada sülhü təmsil edir. "Bizim BMT-də öz sözümüz var və biz Azərbaycanı hər zaman dəstəkləyirik", - deyə o əlavə edib.

Sonra tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda Oqtay Əsədov Rodriqo Mayaya ölkələrimiz arasında parlamentlərarası əlaqələrin və ikitərəfli əməkdaşlığın inkişafında göstərdiyi xidmətlərə görə "Azərbaycan Respublikası Milli Məclisinin "Parlament Medalı"nı təqdim edib.

AZƏRTAC

*XİN:*

# Azərbaycan NATO ilə qarşılıqlı maraq doğuran bir çox məsələlərə dair siyasi dialoqa böyük önəm verir

## *Xarici İşlər Nazirliyi Azərbaycanın NATO-nun Sülh naminə Tərəfdaşlıq Proqramına qoşulmasının 25 illiyinə dair məlumat yayıb*

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsi Azərbaycanın 1994-cü il mayın 4-də NATO-nun Sülh naminə Tərəfdaşlıq Proqramına qoşulmasının 25 illiyinə dair məlumat yayıb.**

AZƏRTAC xəbər verir ki, məlumatda 25 il bundan əvvəl bu gün Azərbaycan Respublikasının Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) Sülh naminə Tərəfdaşlıq Proqramına qoşulduğu bildirilir. Qeyd edilir ki, 1994-cü il mayın 4-də ümummilli lider Heydər Əliyev NATO-nun mənzil-qərargahını ziyarət edib və Sülh naminə Tərəfdaşlıq (SNT) Çərçivə Sənədini imzalayıb. Həmin vaxtdan etibarən Azərbaycan Alyans ilə möhkəm və qarşılıqlı faydalı tərəfdaşlıq qurub.

NATO ilə əməkdaşlıq Azərbaycanın xarici və təhlükəsizlik siyasətinin vacib istiqamətlərindən biridir. Azərbaycan NATO ilə tərəfdaşlığını bütün Avratlantik məkanında təhlükəsizlik, sabitlik və tərəqqiyə töhfə vermək vasitəsi kimi görür. SNT Proqramı, şübhəsiz ki, Alyansın ən uğurlu proqramlarından biridir və Azərbaycan Avratlantik təhlükəsizliyin möhkəmləndirilməsində onun rolunu müsbət qiymətləndirir.

NATO ilə 25 illik əməkdaşlıq SNT Çərçivə Sənədinin və BMT Nizamnaməsinin ortaq dəyər və prinsiplərinə, əlaxüsus, dövlətlərin siyasi müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsi öhdəliyinə söykənib.

Azərbaycan NATO müttəfiq ölkələri tərəfindən tərəfdaşlığımızın başlanğıcından bəri Zirvə bəyannamələrində qeyd edildiyi kimi, Azərbaycan Respublikasının ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə, münaqişənin məhz bu prinsiplər əsasında həllinə davamlı dəstək nümayiş olunmasını alqışlayır. Azərbaycan NATO ilə qarşılıqlı maraq doğuran bir çox məsələlərə bağlı müntəzəm siyasi dialoqa böyük önəm verir və Alyans ilə müxtəlif məsələlər, xüsusilə də sülhməramlı əməliyyatlar və müdafiə islahatları üzrə praktiki əməkdaşlığı yüksək dəyərləndirir.

Azərbaycan və NATO sülhməramlı əməliyyatlar sahəsində möhkəm tərəfdaşlığa malikdir. Azərbaycan NATO-nun rəhbərlik etdiyi və BMT Təhlükəsizlik Şurasının mandatı əsasında fəaliyyət göstərən sülhməramlı əməliyyatlara ilk töhfə verən ölkələrdəndir. Hazırda Azərbaycan Əfqanıstanda NATO missiyasına ordu birləşmələri ilə töhfə verir və missiyaya dəstək olaraq özünün hava məkanından və yerüstü kommunikasiya xətlərindən istifadəyə imkan yaradır. Azərbaycan, həmçinin əfqan təhlükəsizlik qüvvələrinin təliminə mühüm maliyyə dəstəyini təmin edir.

Azərbaycan Avratlantika ərazisində və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyin qorunması məqsədilə Sülh naminə Tərəfdaşlıq çərçivəsində əldə etdiyi nailiyyətlərə əsaslanaraq və onun prinsiplərinə, məqsədlərinə uyğun olaraq, NATO ilə işləməyə davam etməkdə qətiyyətlidir.

AZƏRTAC

*İdris Cəzairi:*

# Azərbaycan dinlərarası dialoqun və mədəniyyətlərarası əməkdaşlığın carçısıdır



**Azərbaycanda qlobal forumların keçirilməsi artıq ənənə halını alıb. Bu gün ölkəniz dünyada dinlərarası dialoqun və mədəniyyətlərarası əməkdaşlığın carçısı kimi çıxış edir. Biz Azərbaycan hökuməti üçün də prioritet istiqamətlərdən biri olan bu fəaliyyətə dəstək vermək üçün builki Forumda iştirak etməkdən çox məmnunluq duyuruq.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Bərabər vətəndaşlıq hüquqlarının dəstəklənməsi üçün daha böyük mənəvi yaxınlaşma istiqamətində irəliləyək" mövzusunda keçirilmiş sessiyanın moderatoru İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru İdris Cəzairi səsləndirib.

İdris Cəzairi bildirib ki, bu sessiya ötən il Cenevrədə keçirilmiş "Bərabər vətəndaşlıq hüquqlarının və qlobal dialoqun möhkəmləndirilməsi" mövzusunda beynəlxalq konfransın davamı olaraq təşkil olunub. O, sessiya iştirakçılarının ötənilki konfransda qəbul edilmiş bəyannamə ilə bağlı müzakirələr apararaq onun Qoşulmama Hərəkatı iştirakçılarının da dəstəyini qazanacağına və BMT-nin Baş Assambleyasının növbəti iclasında təqdim etməyə müvəffəq olacaqlarına ümidvar olduğunu qeyd edib. İ.Cəzairi Azərbaycanın 2019-cu ildən başlayaraq Qoşulmama Hərəkatına sədrlik etməsinin bu prosesə təkan verəcəyini vurğulayıb.

AZƏRTAC

*Əbuzər İbrahim Türkmən:*

# Mədəniyyətlərarası dialoq sülhə nail olmaq və zorakılığın qarşısını almaq üçün ən yaxşı yoldur

**Mədəniyyətlərarası dialoq sülhə nail olmaq və zorakılığın qarşısını almaq üçün ən yaxşı yoldur.**

**AZƏRTAC xəbər verir ki, bu sözləri İranın İslam Mədəniyyəti və Əlaqələri Təşkilatının sədri Əbuzər İbrahim Türkmən deyib.**

**Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən Ə.İ.Türkmən Forumun işini yüksək qiymətləndirib. Bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən bu tədbirdə dünyanın tanınmış ictimai, siyasi, mədəniyyət xadimləri iştirak edirlər. Müxtəlif xalqların, mədəniyyətlərin və dinlərin nümayəndələrinin bir araya gələrək qlobal problemləri müzakirə etmələri təqdirəlayiqdir.**

**İran ilə Azərbaycanın mədəniyyət sahəsində əlaqələrinə toxunan Ə.İ.Türkmən Bakıda ikitərəfli görüşlər keçirdiyini və bu görüşlərdə qarşılıqlı əlaqələrin müzakirə olunduğunu deyib. Bildirib ki, müzakirələrdə qarşılıqlı olaraq kino həftələrinin, mədəniyyət günlərinin keçirilməsi barədə razılıq əldə edilib.**

**Ə.İ.Türkmən İran və Azərbaycan xalqlarının tarixən yaxınlığını xatırladaraq, hər iki xalqın müştərək tarixə, mədəniyyətə, adət-ənənəyə, dinə malik olduğunu vurğulayıb. O bildirib ki, bu amillər dövlətlərin daha sıx və səmərəli əməkdaşlığı üçün böyük zəmin yaradır.**

AZƏRTAC

# Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir

**(əvvəli 1-ci səhifədə)**

Dünya tarixşünaslığı elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, gələcəyini, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını, milli mədəniyyətimizi öyrənir. Ulu öndər Heydər Əliyev respublikaya rəhbərliyi dövründə möhkəm təməllərə əsaslanmaqla fundamental dövlətçilik ənənələri formalaşdırmış, milli müstəqillik, azadlıq məfhumlarının illüziya və şüarçılıq səviyyəsindən həqiqi milli ideyalara çevrməyi bacarmışdır. O, siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli dəyərlərə bağlı olmuşdur. Ümummilli liderimiz bütün zəngin və mənalı həyatı boyu daim xalqını, Vətənini düşünmüş, Azərbaycanı ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir.

Azərbaycanın sosial-iqtisadi və diplomatik sahədə üzləşdiyi bir çox problemlərin həlli məhz ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı mərhələdə mümkün olmuşdur. 1990-cı illərin əvvəlində ölkədə hakimiyyət böhranı dərinləşmiş, ictimai-siyasi sabitlik pozulmuş, xaos və anarxiya, hərc-mərclik mühiti formalaşmış, vətəndaş qarşıdurması güclənmiş, qanunçuluq və hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Bu sarsıntı və təlatümlər təsdiqlədi ki, yalnız dəmir iradəyə, fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq və yaratmaq kimi ağır missiyanın öhdəsindən gələ bilər. Heydər Əliyevin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə tam aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirilmiş, vətəndaş sülhü və həmrəyliyinin təminatı istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır.

Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firavan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. Ömrünün son dəqiqəsinədək xalqının gələcək taleyi haqqında düşünürdü: "Azərbaycanda çox böyük sürətlə məktəblər, xəstəxanalar və digər obyektlər tikilir, insanları narahat edən əsas məsələlər öz həllini tapır. Ölkəmizdə bütün sahələrdə böyük quruculuq işləri gedir və bu işlər Azərbaycanın xoşbəxt gələcəyinə xidmət edir. Mən əminəm ki, Azərbaycan yaxın zamanda çox qüdrətli bir ölkəyə çevriləcək, vətəndaşlarımız güclü, azad, sivil və gözəl ölkədə yaşamaqları ilə fəxr edəcəklər".

Heydər Əliyev Vətən üçün, xalq üçün doğuldu. Vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün çalışdı və bu yolda ömrünü şam kimi əritdi. Ona görə də xalqın öz sədaqəti, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir...

Son illərdə Azərbaycan milli mənafelərə əsaslanmaqla həyata keçirilmiş xarici siyasət kursunun prioritet istiqaməti müstəqil və güclü dövlət modelinin praktik surətdə reallaşdırılmasına yönəlmiş, respublikamız beynəlxalq normalara istinad edərək sivil dünyanın hüquqi-siyasi atmosferini müəyyənləşdirən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərini yüksək dinamizmlə inkişaf etdirmək xəttinə üstünlük vermişdir. Ulu öndərimiz Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərin həllinə yönəlmişdir.

Ümummilli liderimiz Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında həm də Azərbaycanın yeni dövrü üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmişdir. Bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktik əsasda göstərmişdir. Ümummilli liderimiz mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu bir ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürərək, onun həyata keçirilməsinə çalışmışdır.

Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq həyata keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir. Azərbaycana son 16 ildə böyük uğurlar gətirən neft strategiyasının əsas mahiyyəti ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır. Bu strategiyanın həyata keçirilməsi iqtisadi maraqlarla yanaşı, milli təhlükəsizlik maraqlarının təmin olunmasına yönəlmişdir. Ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu uğurlu neft strategiyası təkcə dövlətin iqtisadi maraqlarının realizə olunmasına deyil, paralel olaraq dövlət müstəqilliyinin qorunub saxlanmasına yönəlmiş siyasi xəttin yürüdülməsinə, buna uyğun əlverişli situasiyanın formalaşdırılmasına xidmət edir. Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firavan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. Ömrünün son dəqiqəsinədək xalqının gələcək taleyi haqqında düşünürdü. 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətdə ürəkağrısı və dərin təəssüf hissi ilə bildirirdi ki, səhhətimdə yaranmış problemlər başladığı, nəticələrini aydın gördüyü işləri tamamlamağa imkan vermir. Eyni zamanda böyük inamla bildirirdi ki, axıra çatdıra bilmədiyi həmin işləri, taleyüklü planları xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıracaq. Həyat növbəti dəfə Heydər Əliyevin uzaqgörənliyini təsdiqlədi.

Ölkəmizin rəhbərinin bu gün dünya miqyasında qazandığı böyük nüfuz, nəhəng dövlətlərin başçıları ilə bərabərhüquqlu tərəfdaş kimi danışıqlar aparması, xalqımızın həqiqətlərini uca səslə bəyan etməsi bir daha sübuta yetirir ki, Heydər Əliyevin dövlətçilik ideyalarının, Heydər Əliyev yolunun alternativi yoxdur və bu yol xalqımızı yeni-yeni uğurlara, zəfərlərə aparır. Biz hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Heydər Əliyev irsinə daim sədaqətliyik və bundan sonra da belə olacağıq. Ulu şəxsiyyətin, Azərbaycan xalqının dahi oğlunun pak əməlləri, müqəddəs ideyaları, arzuları və vəsiyyətləri həmişə yaşayacaqdır. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Bu gün biz məmnunluq və qürur hissi ilə ulu öndərin özündən sonrakı varisə bəslədiyi böyük ümidlərin necə uğurla doğruldulduğunun xoşbəxt şahidləriyik. Etibarlı əllərdə olan Azərbaycan dinamik sosial-iqtisadi inkişafı, əmin-amanlıq diyarı, ictimai-siyasi sabitlik adası olmağı, məhsuldar əməkdaşlıq məkanına çevrilməsi, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ilə dünyaya güneş kimi doğur. Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunu böyük bacarıqla, müdrik uzaqgörənliklə davam etdirir.

Ötən 16 ildə Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi lider olduğunu təsdiqləmiş, ictimai inamı tam doğrultmuşdur. Dövlət başçısının fəaliyyətinin üstün cəhəti məhz bundan ibarətdir ki, o, mövcud gerçəklikləri obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə ən optimal qərarlar qəbul etməyi, ölkənin taleyüklü problemlərinə həssaslıqla yanaşmağı bacarır.

Azərbaycan xalqı dövlətimizin əldə etdiyi bütün uğurlara görə, ulu öndər Heydər Əliyevə minnətdardır. Xalqımız ümummilli liderə həm də ona görə minnətdardır ki, İlham Əliyevi xalqımıza bəxş etdi. Çünki məhz İlham Əliyevin sayəsində bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf kursunu daha da zənginləşdirən Prezident cənab İlham Əliyevin siyasi iradəsi, zəngin dövlətçilik təcrübəsi, titanik işgüzar keyfiyyətləri, ən əsası isə xalqa olan dərin məhəbbəti, vətənpərvərliyi müstəqil Azərbaycan dövlətinin gələcək inkişafına təminat verən yeganə amildir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti bundan sonra da böyük inkişaf yolu keçəcək, ulu öndər Heydər Əliyevin bütün arzularını gerçəyə çevirəcəkdir.

**Azad İBRAHİMOV,**
**"ANT-İNŞAAT və TƏMİR-TİKİNTİ" MMC-nin baş direktoru.**

*Müdafiə naziri:*

# Əsas diqqət döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına yönəldilməlidir

**Mayın 4-də Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun hərbi potensialının gücləndirilməsi ilə bağlı qarşıya qoyduğu konkret vəzifələri rəhbər heyətə çatdıran nazir əsas diqqətin bütün qoşun növ və qismlərinin, xüsusilə ön xətt bölmələrinin döyüş qabiliyyətinin yüksəldilməsinə yönəldilməsini tapşırıb.

Müdafiə naziri döyüş hazırlığı planına uyğun olaraq gecə və gündüz vaxtı real döyüş şəraitinə və ərazisinə uyğun keçirilən təlim və məşqlərin intensivliyinin artırılması, gizli idarəetmə və maskalanmanın tələblərinə, ümumi təhlükəsizlik məsələlərinə, xüsusilə də yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməklə qoşunların operativliyinin, döyüş hazırlığının yüksəldilməsi, birlik və birləşmələrin silah, döyüş və xüsusi texnikasının yay mövsümündə istismar rejiminə keçidinin təşkili ilə bağlı vəzifəli şəxslər qarşısında tapşırıqlar qoyub.

General-polkovnik Zakir Həsənov döyüş hazırlığının daha keyfiyyətli təşkili, hərbi peşəkarlıq səviyyəsinin artırılması, şəxsi heyətin hərbi vətənpərvərlik və döyüş ruhunun yüksəldilməsi məqsədilə ideoloji işin və mənəvi-psixoloji təminatın gücləndirilməsi, habelə digər xidməti məsələlərin həlli ilə bağlı konkret göstərişlər verib.

**AZƏRTAC**

# Prokurorluq əməkdaşları növbəti ağacəkmə kampaniyası keçiriblər

**Mayın 4-də Baş Prokurorluğun, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə ağacəkmə kampaniyasında iştirak ediblər.**



Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Son illər respublikamızda yaşıllıqların artırılmasına, yeni park və xiyabanların salınmasına xüsusi diqqət yetirilir. Yaradılan parklar və yaşıllıqlar sakinlərə xoş əhval-ruhiyyə bəxş edir. Əkilən ağaclar insanların sağlamlığına müsbət təsir göstərməklə yanaşı, paytaxtın ümumi mənzərəsinə yeni çalarlar əlavə edir. Əsas məqsəd paytaxtın ekoloji cəhətdən



sağlamlaşdırılmasına töhfə verməkdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirib. Azərbaycan Respublikası Prokurorluğu orqanlarının əməkdaşları da bu xeyirxah və nəcib tədbirdə həmişə yüksək əhval-ruhiyyə ilə iştirak ediblər. Ulu Öndər tərəfindən əsası qoyulmuş ekoloji siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Dövlətimizin başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin Baş Prokurorluqda yaranmış ənənəyə uyğun olaraq, prokurorluq orqanlarının əməkdaşları ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçiriblər.

Tədbir çərçivəsində paytaxtın Suraxanı rayonu ərazisində Dədə Qorqud qəsəbəsinin yaxınlığında bir hektar ərazidə minə yaxın badam ağacı əkilib. Abşeron yarımadasının iqliminə uyğun olaraq, əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunub. Həmçinin əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**AZƏRTAC**

# "Jewish Journal" nəşri Azərbaycanın işğal olunmuş ərazilərində abidələrin məhv edilməsindən yazıb

**Amerikanın "Jewish Journal" nəşrində Xocalı qırğınının möcüzə nəticəsində xilas olmuş şahidi Dürdanə Ağayevanın "Böyük itkilər: Qafqazda diqqətdən kənarda qalan "mədəni təmizləmə" sərlövhəli məqaləsi dərc olunub. Məqalə Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərində mədəniyyət abidələrinin məhv edilməsinə həsr edilib.**




Müəllif yazır ki, 1990-cı illərin əvvəllərində Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik yeddi rayonu işğal edib. BMT Təhlükəsizlik Şurası bu qanunsuz hərbi təcavüzü pisləyən dörd qətnamə qəbul edib. D.Ağayeva qeyd edir ki, onun özü və ailə üzvləri də daxil olmaqla, 800 mindən çox dinc azərbaycanlı öz doğma yurdlarından didərgin düşüb.

Məqalədə vurğulanıb ki, etnik təmizləməni başa çatdıran erməni işğalçıları bu torpaqlarda azərbaycanlıların mövcudluğunun bütün izlərini silməyə cəhd edirlər. Bu, son dərəcədə iyrənc addımdır, çünki Dağlıq Qarabağ Azərbaycan poeziyasının, musiqisinin və mədəniyyətinin beşiyidir.

2010-cu ildə isveçrəli jurnalist Andre Vidmer işğal altında olan bölgədə Azərbaycanın mədəniyyət nümunələrinin məhv edilməsindən yazıb. O, əvvəllər 50 min azərbaycanlı əhalinin yaşadığı işğal edilmiş Ağdam rayonuna səfər etdikdən sonra işğalçıların talanı və mədəniyyət abidələrini yer üzündən silmək cəhdlərini davam etdirdiklərini qeyd edib. İsveçrəli jurnalist yazıb: "Bununla belə, hətta atəşkəs haqqında sazişin imzalanmasından 20 ilə yaxın müddətdən sonra da, işğalçılar Ağdamı talan etməkdə davam edirlər... Ağdam şəhəri müharibənin qalıblərinin ehtiyat hissələri anbarına çevrilib... Sivilizasiyanın vuran nəbzindən, mədəni sərvətlərdən və infrastrukturdan məhrum olmuş Ağdam məchul ölkədə tənha, dəhşətli yerə bənzəyir". Britaniyalı jurnalist Tomas de Vaal bir zamanlar bu şəhəri "kiçik Xirosima", digər britaniyalı yazıçı və səyahətçi Corc Mitçell isə "Qafqaz Xirosiması" adlandırıblar.

Məqalədə ermənilər tərəfindən Azərbaycanın 1891 maddi və mədəni irs obyektinin, o cümlədən 738 tarixi abidənin, 83 500 eksponatı olan 28 muzeyin, 4 foto qalereyanın, 14 memorial kompleksin və 107 mədəniyyət müəssisəsinin talan, təhqir və məhv edilməsindən bəhs edilib. ATƏT-in regionda faktların aşkar edilməsi üzrə missiyası 2005 və 2010-cu illərdə ermənilər tərəfindən işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irs obyektlərinin məhv edilməsini təsdiq edib.

D.Ağayeva yazır: "Dünya ictimaiyyəti mənim ailəmin və Qarabağın yüz minlərlə sakinlərinin çoxəsrlik irsinin təmizlənməsi kimi dəhşətli faktlara biganə qalmamalıdır. Bəşəriyyətə məxsus olan hər hansı mədəniyyətin itirilməsi hamı üçün itki sayılmalıdır".

**AZƏRTAC**

# Gəncədə "Yaşıl şəhər" layihəsi müzakirə olunub

Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndələri Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla görüşüblər. Görüşdə qonaqlara şəhərin tarixi, mədəniyyəti və iqtisadiyyatı barədə ətraflı məlumat verilib. Söhbət zamanı Avropa Yenidənqurma və İnkişaf Bankının həyata keçirdiyi "Yaşıl şəhər" layihəsi ətrafında müzakirələr aparılıb.



Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycandakı ofisinin rəhbəri İvana Duarte bildirib ki, təmsil etdiyi qurum Avropanın 20-dən çox şəhəri ilə qeyd olunan layihə çərçivəsində əməkdaşlıq edir. Səfərlərinin məqsədi Gəncəni də bu şəhərlərin sırasına daxil etməkdir. Əsas hədəf şəhərin ekoloji vəziyyətini yaxşılaşdırmaqdır. Proqram çərçivəsində biz şəhər üçün xüsusi əhəmiyyət daşıyan bir neçə sahədə əməkdaşlıq etməyi düşünürük. Bura ictimai nəqliyyatın yenilənməsi, məişət tullantılarının utulizasiyası, gecə işıqlandırılması sisteminin yenilənməsi, suyun keyfiyyətinin yaxşılaşdırılması və digərləri daxildir.

Potensial əməkdaşlıq imkanlarının müzakirə edildiyi görüşdə Niyazi Bayramov qeyd edib ki, şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən bir sıra addımlar atılır. Hazırda şəhərə Belarus istehsalı olan "Elektrobus"ların gətirilməsi istiqamətində danışıqlar aparılır. O həmçinin bildirib ki, Gəncənin gecə işıqlandırılması sistemi yenidən qurulur və burada da 40 faizədək qənaəti təmin edən yeni lampalardan istifadə edilir. Niyazi Bayramov "Yaşıl şəhər"in olduqca faydalı layihə olduğunu hesab etdiyini bildirib və bu sahədə əməkdaşlığın mümkün olacağını dilə gətirib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Notariat sahəsində beynəlxalq seminar keçirilib





**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafı üzrə aparılan islahatlar çərçivəsində notariat orqanlarının fəaliyyəti təkmilləşdirilir, səlahiyyətləri genişləndirilir. Beynəlxalq təcrübəyə uyğun olaraq xüsusi notariat institutu yaradılaraq səmərəli fəaliyyət göstərir. Həmçinin notariat ofisləri vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sisteminin imkanları notariat hərəkətlərinin rəsmiləşdirilməsini xeyli sadələşdirib. Notariat sahəsinin inkişafı və tətbiq olunan yeniliklər xarici ölkələrdə böyük maraq doğurur, nümayəndə heyətləri Azərbaycan təcrübəsini öyrənmək məqsədilə ölkəmizə səfərlər edir, müxtəlif aktual mövzularda beynəlxalq konfranslarda, seminarlarda iştirak edirlər.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakıda, "Bulvar Hotel"də "Notariat - qabaqcıl təcrübə və perspektivlər" mövzusunda növbəti beynəlxalq elmi-praktiki seminar keçirilib.

Tədbirdə Rusiyanın Stavropol notariat palatasının prezidenti, bu və digər şəhərlərinin, eləcə də ölkəmizin notariusları iştirak ediblər.

Seminarda notariat sahəsində tətbiq olunan innovasiyalar, elektron ədliyyə köşkü, məsafədən videoyazı vasitəsilə göstərilən notariat xidmətləri, mobil notariatın tətbiqi, "Elektron notariat" informasiya sistemi vasitəsilə daşınmaz əmlaka dair mülkiyyət hüquqlarının dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi və müvafiq çıxarışların vətəndaşlara verilməsi, müqavilələr üzrə öhdəliklərin notariusun icra qeydi əsasında sadələşdirilmiş elektron qaydada həyata keçirilməsi imkanları barədə ətraflı məlumat verilib.

Qonaqlar Dövlət notariat arxivi, Bakı şəhərinin bir neçə notariat ofislərinin fəaliyyəti ilə yaxından tanış olublar.

Müzakirələr zamanı qarşılıqlı fəaliyyətin perspektivləri və notariat sahəsində maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# MASALLIDA KƏNDLƏRİN İNKİŞAFI DİQQƏT MƏRKƏZİNDƏDİR

**Təklə inzibati dairəsi üzrə nümayəndəlik 5 kəndi birləşdirir. Ərazidə 8225 nəfər əhali yaşayır. Son illər ərazinin sosial problemləri ardıcıl şəkildə öz həllini tapır.**





Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov hər həftə qrafik üzrə rayonun kəndlərində olur, sakinlərlə yerindəcə görüşərək mövcud vəziyyətlə maraqlanır. Canlı dialoq şəklində qurulan səyyar görüş və qəbullarda vətəndaşların irəli sürdükləri təkliflər rayonun müvafiq idarə, müəssisə və təşkilatların rəhbərlərinin iştirakı ilə müzakirə edilir, bəzi məsələlər yerindəcə həll olunur, bəzilərinin həlli ilə əlaqədar respublika təşkilatları qarşısında məsələ qaldırılır. Vətəndaşların müraciətlərinin həyata keçirilməsi icra başçısı tərəfindən nəzarətə götürülür.

İcra başçısının Təklə ərazisində keçirdiyi səyyar görüş və qəbullarda inzibati ərazi vahidliyini əhatə edən kəndlərdə məktəb tikintisi, təbii qaz və elektrik enerjisi ilə təchizatın yaxşılaşdırılması, içməli su xətlərinin çəkilməsi ilə bağlı təkliflər irəli sürülmüşdür. İcra başçısı tərəfindən təkliflər həssaslıqla dinlənilmiş, dövlət dəstəyi sayəsində qısa vaxtda ərazidə iki yeni məktəb binası tikilmiş, dağlardan baş alıb axan Viləş çayının mənbəyindən içməli su xətti çəkilmiş, ərazinin qazlaşdırılması və SİP kabellərin çəkilməsi başa çatdırılmışdır.

Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynovun növbəti səyyar görüş və qəbulu ərazinin Sığıncaq kəndində keçirilib. İcra başçısı sakinləri salamlayıb, ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində həyata keçirilən layihələrdən, Azərbaycan Prezidenti cənab İlham Əliyevin əhalinin rifah halının yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində son vaxtlar imzaladığı sərəncamlardan, regionların sosial-iqtisadi inkişafına göstərilən dövlət qayğısından, Masallıda görülən genişmiqyaslı tikinti, abadlıq və quruculuq işlərindən ətraflı danışıb.

Bildirib ki, 2019-cu il sosial inkişaf və əhalinin sosial müdafiəsi baxımından fərqli il olacaqdır. Bu ilin birinci ayında qeyri-neft sektorunda sənaye istehsalının artması yeni layihələrin həyata keçirilməsi və əhalinin maddi rifah halının yaxşılaşdırılması üçün geniş imkanlar açır. Sonra icra başçısı sakinləri canlı dialoqa, əhalini narahat edən problemlər barədə açıq fikir mübadiləsi aparmağa dəvət edib.

Səyyar görüş və qəbulda sakinlərdən Cavanşir Əhmədov, Əhmədağa Cəfərov, Sabir Mustafayev, Nazim Eyniyev, Fəxrəddin Tağıyev, İbadulla Ağayev, Yavər İsmayılov və başqaları rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə göstərilən yüksək qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirərək Xoşçobanlı kəndinin tam qazlaşdırılması, Sığıncaq kənd tam orta məktəbinə qaz xəttinin çəkilməsi, yağışlı havalarda ərazinin su basmasının qarşısını almaq üçün kanalların təmizlənməsi və digər məsələlər barədə təkliflər irəli sürüblər.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov görüşü yekunlaşdıraraq qaldırılan məsələlərlə əlaqədar müvafiq qurumların rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşların müraciətlərinə daim həssaslıqla yanaşılacağını, ərazinin sosial problemlərinin tam həlli istiqamətində lazımi tədbirlərin görüləcəyini bildirib.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# Müasir Azərbaycanın qurucusu



**Hər xalqın taleyində onun yetirdiyi dahi şəxsiyyətlərin rolu əvəzsizdir. Tarixin ayrı-ayrı dövrlərində hər bir ölkə ağır sınaqlarla üzləşəndə bütün xalqı öz ətrafında birləşdirib vəziyyətdən çıxış yolu tapa bilən liderə ehtiyac duyur.**

Bütöv bir millət belə bir liderin sayəsində məhv olmaqdan qurtulub yenidən həyata qayıdır. Ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev xalqımızın taleyində məhz belə bir rol oynamış, millət qarşısında əvəzsiz xidmətləri ilə adını həmişəlik tarixin yaddaşına həkk etmişdir. Ulu öndər ölkəyə rəhbərlik etdiyi dövrlərdə daim onun tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə fəxr etdiyi və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma Azərbaycanı bir xalq və dövlət kimi zamanın sərt sınaqlarından çıxarmışdır.

Xalqımızın böyük qürur və iftixar hissi ilə qeyd etdiyi tarixi hadisə— ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü müstəqil Azərbaycanın həyatında əlamətdar bir dövrə təsadüf edir. Müstəqil dövlətimizin güclənməsi, qüdrətlənməsi, sosial-iqtisadi inkişafının sürətlənməsi və dünyada analoqu olmayan bir inkişafa nail olması, əhalinin rifahının yüksəlməsi, demokratikləşmə prosesinin dərinləşməsi ilə səciyyələnən bu dövrün bütün uğur və nailiyyətlərinin möhkəm bünövrəsi vardır. Bu təməl Azərbaycanın müasir tarixinin bütöv bir qərinəsində möhtəşəm dövlətçilik fəaliyyəti ilə xalqımızın taleyini müəyyənləşdirən ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Azərbaycan tarixini Heydər Əliyevsiz təsəvvür etmək sadəcə olaraq mümkün deyil. Xalqın otuz ildən artıq bir dövrünü əhatə edən tarixi onun adı ilə bağlıdır. Bu illər ərzində cəmiyyətin ictimai-siyasi və mədəni həyatının bütün sahələrində müşahidə olunmuş dirçəliş məhz onun xidmətlərinin nəticəsidir.

Ulu öndər hələ 1969-cu ildə ilk dəfə respublikanın rəhbəri seçiləndə Azərbaycan keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri olmuşdur. Sosial-iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyillərin güclənərək getdikcə daha dərin kök saldığı, hakimiyyət uğrunda gizli rəqabətin artdığı, bütün bunların isə xalqın milli mənəvi birliyinə ziyan vurduğu Azərbaycanda hakimiyyətə gələn yeni rəhbərin birinci işi iqtisadi potensialın dağıdılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət olmuşdur.

Həmin illərdə milli ideyanın qıtlığı üzündən baş alıb gedən iqtisadi-mədəni tənəzzülə aparan mənfi hallar Heydər Əliyevin hakimiyyətə gəlişi ilə aradan qaldırıldı. Azərbaycan, sözün həqiqi mənasında quruculuq meydanına çevrildi. Çoxsaylı sənaye müəssisələri, sosial obyektlər inşa edildi, infrastruktur yeniləndi, kənd təsərrüfatında dirçəliş başlandı. Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi.

Ulu öndərin sonralar qeyd etdiyi kimi, “Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-tərəqqi və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərlməsi üçün möhkəm zəmin yaratmışdır”.

Məlumdur ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilsə də, bu müstəqillik əslində formal xarakter daşıyır, müstəqilliyin itirilməsi qorxusu Azərbaycanın başı üzərindən bir an belə çəkilmirdi. Xarici hərbi təcavüz davam edir, ölkə xaos içərisində boğulur, qanunsuzluq baş alıb gedirdi. Müstəqil dövlətin səriştəsiz, məsuliyyətsiz rəhbərləri vəziyyətdən çıxış yolu tapa bilmir, getdikcə xalqın gözündən düşürdü. 1993-cü ilin iyun hadisələri ölkə daxilində cərəyan edən ictimai-siyasi proseslərin kulminasiya nöqtəsi oldu. AXC-Müsavat hakimiyyəti səbatsızlıq nümayiş etdirərək siyasi səhnədən çəkilmək məcburiyyətində qaldı. Əslində xalq və dövlət rəhbərsiz qalmışdı.

Belə bir kritik məqamda xalq öz böyük oğluna - Heydər Əliyevə üz tutdu. Təcrübəli siyasətçi, bacarıqlı dövlət xadimi xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdıb xilaskarlıq missiyasını öz üzərinə götürdü. Tezliklə məlum oldu ki, bu, yeganə doğru seçim idi.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı milli müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Bununla da ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başladı. Azərbaycanın dövlət müstəqilliyi hər cür daxili və xarici təhdidlərdən qurtuldu.

Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən milli ordunun formalaşdırılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən cəbhə xəttində vəziyyəti sabitləşdirmək üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, nəhayət, 1994-cü ilin mayında atəşkəs əldə edildi. Cəmiyyət nəfəsini dərmək üçün fürsət əldə etdi, dərin böhrandan çıxmaq, həyatın bütün sahələrində köklü islahatlara başlamaq, davamlı inkişaf yoluna çıxmaq üçün müqəddəm şərtlər yarandı.

Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyuldu, qanunçuluq bərpa edildi, bütün qanunsuz silahlı dəstələr ləğv olundu. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alındı, dövlət müstəqilliyi qorunub saxlandı. Həmin o qanlı-qadalı illərdə bütün manelərə son qoyuldu.

Şübhəsiz, yeni müstəqil dövlətin həyatında ən əlamərtdar hadisələrdən biri 1994-cü ilin sentyabrında xarici neft şirkətlərinin iştirakı ilə ilk neft müqaviləsinin - “Əsrin müqaviləsi”nin imzalanması idi. Bu sənəd asan başa gəlmədi. Azərbaycan iri regional qüvvələrin ciddi təzyiqləri ilə üzləşdi. Həmin qüvvələr müqavilələrin reallaşması, eləcə də sonralar Bakı-Tiblisi-Ceyhan neft kəmərinin inşasının qarşısını almaq üçün hər vasitələrdən istifadə etdilər. Amma Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövləti bu maneələri məharətlə aradan qaldırdı və nəticə etibarilə Xəzər hövzəsində gərginliyə son qoyuldu, əməkdaşlıq mühiti yarandı. Neft Azərbaycan üçün sözün həqiqi mənasında tale məsələsi idi və bu məsələdə hər hansı güzəştə getmək mümkün deyildi. Milli iqtisadiyyatın lokomotivi olan neft sənayesi müstəqil ölkə üçün böyük perpektivlər vəd edirdi. Heydər Əliyevin müəllifi olduğu neft strategiyası sonrakı illərdə də böyük uğurla həyata keçirildi və bütövlükdə iqtisadiyyatın dirçəlməsinə, ölkənin müstəqilliyinin möhkəmlənməsinə, dünya iqtisadiyyatına inteqrasiyasına, dövlətin beynəlxalq aləmdə, ilk növbədə Avropada nüfuzunun artmasına şərait yaratdı. Bu gün Azərbaycanın tərəqqisi ilk növbədə milli neft stratelgiyasının nəticəsidir. Ulu öndərin layiqli siyasi varisi olan ölkə Prezdenti İlham Əliyevin qətiyyət və güclü iradəsi sayəsində reallaşan XXI əsrin lahiyələri TANAP və TAP məhz Heydər Əliyevin müəllifi olduğu milli neft strateliyasının zəminində reallaşır.

1999-cu il aprelin 17-də müstəqil Azərbaycanın tarixində böyük əhəmiyyət kəsb edən bir hadisə yaşanılmışdır. Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan prezdenti Eduard Şevernadze və Ukrayna prezidenti Leonid Kusmanın iştirakı ilə Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahillərindəki Supsa ixrac terminalı istismara verilib. “Çıraq” yatağından çıxarılan neftin Supsa limanından dünya bazarına ixracına başlanılmış və ilk dəfə olaraq Azərbaycan nefti şimala yox, qərbə istiqamət götürüb. Bu hadisə Azərbaycanın ikinci dəfə dünya bazarına açıq olduğunu öz əməlləri ilə göstərmişdir.

Milli Neft Stratelgiyasının uğurla reallaşması şəraitində milli resursların xarici şirkətlərlə birgə istehsalı və ixracı ildən-ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta ehtiyatları artır.

Heydər Əliyev həyatı boyu həmişə xalqa arxalanmışdı: “Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib”.

Dünyanın məşhur siyasətçiləri, dövlət xadimləri Heydər Əliyevi siyasət nəhəngi, siyasət şahmatının mahir ustası adlandırırdılar. O, tarixi perspektivləri qabaqcadan görmüş, ən çətin məqamlarda düzgün qərarlar qəbul etmək bacarığı ilə çoxlarını heyran qoymuşdur.

Ulu öndərimiz Heydər Əliyev dünyanın nadir insanlarındandır. O, hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa malik ümummilli lider əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi.

Heydər Əliyev və onun irsi daim yaşayacaq, Azərbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaqdır. Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün örnəkdir, güc mənbəyidir. Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, müstəqilliyimiz və suverenliyimiz daha da möhkəmləndirilir, bütün sahələrdə tərəqqi davam edir.

**Ceyhun MƏMMƏDOV,**
**“Azpetrol LTD” MMC-nin baş direktoru,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**

# Ürəklərdə əbədi yaşayan dahi şəxsiyyət

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir. Ulu öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb.**

Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixində özünəməxsus yer tutan nadir tarixi şəxsiyyətlərdəndir. Onun zəngin irsi hələ uzun müddət siyasətşünasların, filosofların, tarixçi və araşdırmaçıların tədqiqat mənbəyi olacaq. Ötən əsrin 70-80-ci illərində Azərbaycanı keçmiş İttifaq məkanında bütün sahələrdə inkişafına görə qabaqcıl respublikalar sırasına çıxaran görkəmli dövlət xadimi Heydər Əliyev həmin vaxtlarda bu diyarın müstəqil gələcəyi üçün hərtərəfli potensialın yaradılmasını təmin etmişdir. Dahi şəxsiyyət Azərbaycana rəhbərliyi illərində respublikamızın inkişaf tempinin, genişmiqyaslı quruculuq işlərinin ardıcıl xarakter alması üçün genişmiqyaslı islahatları reallaşdırmışdır. Onun həyata keçirdiyi iri layihələrin icrası sayəsində iqtisadiyyatın bütün sahələri əhəmiyyətli dərəcədə inkişaf etməyə başlamışdır.

Tarixdə elə şəxsiyyətlər var ki, adı və əməlləri dünya durduqca yaşayacaq, gələcək nəsillərə örnək olmaqla, onların yolunda əbədi məşələ çevriləcəkdir. Adı müasir bəşər tarixinə qızıl hərflərlə həkk olunmuş xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Ulu öndərimizin hələ sağlığında əfsanəvi, xarizmatik liderə çevrilməsində onun həyatı üçün heç bir riskdən çəkinməməsi, sözünü məqamında deməyi bacarması, milli ideallar uğrunda mübarizədə yüksək qətiyyət göstərməsi kimi xarakterik xüsusiyyətləri mühüm rol oynamışdır. Məhz bunun sayəsində ulu öndər daima hadisələrin fövqündə olmuş, idarəçilik qabiliyyətini reallaşdırmış, fenomen lider imicini qorumuşdur. Ümummilli lider bütün sahələrdə dərin bir irs qoyub getmişdir.

Hamımız üçün çox doğma və əziz olan Heydər Əliyev dünya şöhrətli siyasətçi, zəmanəsinin ən böyük şəxsiyyəti idi. O, Azərbaycanın güclü, inkişaf etmiş qüdrətli dövlətə çevrilməsində, sənayemizin, kənd təsərrüfatımızın, sosial-iqtisadi sahələrin güclənməsi yolunda əlindən gələni əsirgəməmişdir. Ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsində, pensiyaçıların, əlillərin, çoxuşaqlı ailələrin, əmək qabiliyyəti olmayan insanların sosial problemləri həmişə onun diqqət və qayğısında olmuşdur. Prezidentliyi dövründə dəfələrlə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması barədə güzəştli fərmanlar imzalamışdır. Onun insanların qayğısına qalması, Vətənə, xalqa bağlılığı hamımıza əyandır.

Heydər Əliyev ümumxalq məhəbbətini, istəyini təkcə öz vətənində deyil, bütün dünyada qazanmışdı. Buna görə də dünya siyasətçiləri, dövlət və hökumət rəhbərləri, siyasi xadimlər onu həmişə yüksək qiymətləndirir, onunla razılaşırdılar. O, əvəzsiz, yeri görünən çox müdrik şəxsiyyət idi. Qazandığımız müstəqilliyə, əldə olunan sabitliyə, həyatımızdakı inkişafa və tərəqqiyə görə biz bu böyük şəxsiyyətə çox borcluyuq. Heydər Əliyev bütün mənalı ömrünü yalnız insanlığa xidmət göstərməyə sərf etmişdi. Bu böyük şəxsiyyət Azərbaycan xalqının təhlükəsiz yaşaması, azadlıq haqqını qazanması uğrunda mübarizə aparmışdı. “Haqqı tapdanan insanların arxasında güclü dövlət durmalıdır, ədalət durmalıdır”. Bu ideya və prinsiplər Heydər Əliyevin istər milli təhlükəsizlik orqanlarında, istər Sovet dönəmindəki siyasi fəaliyyətində, istərsə də Azərbaycanın prezidenti olduğu illərdə həyat devizi, amalı olub. Ümummilli liderimiz bu istiqamətdə zəngin milli-mənəvi və ümumbəşəri dəyərlər formalaşdırıb.

Heydər Əliyevin yaratdığı, insanlığa xidmət göstərən yaxşı nə varsa, hamısını əhatə edən və sistem halını alan bu dəyərlər onun mənəvi dünyasını əbədi yaşadacaq. Siyasətçilər də, iqtisadçılar da, diplomatlar da, alimlər də, sadə əməklə məşğul olan insanlar da Heydər Əliyevin yaratdığı nemətlərə dönə-dönə istinad edəcəklər. Bu nemətlərdən faydalanmaq üçün, müvafiq addımlar atmaq üçün istifadə edəcəklər. Bu insanlar maddi-mənəvi dəyərlərin hamısını qoruyub inkişaf etdirəcək və zənginləşdirəcəklər. Heydər Əliyev respublikamızın hansı bölgəsinə ayaq basıbsa, xalq onu ən əziz adamı kimi qarşılayıb, onun qədəmləri altında qurbanlar kəsib, onun gəlişinə sevinib. Çünki hər bir böyük siyasətçinin qibtə edəcəyi bir ömür yaşadı Heydər Əliyev. O, zəngin, mübarizələrlə və qalibiyyətlə dolu həyatının hər gününü, hər anını doğma xalqına bağışladı. Bu xalqı qaldırıb dikəltdi, parçalanmaqdan, məhv olmaqdan, əzilməkdən və əyilməkdən xilas etdi, onu dünyada layiq olduğu şöhrətə çatdırdı. Ümummilli liderimiz müstəqil Azərbaycan dövlətini qurdu. Bu gənc və zəif dövləti öz qüdrətli əlləriylə ayağa qaldırdı, möhkəmləndirdi, xarici düşmənlərdən və daxildəki xəyanətkarlardan qorudu. O, Azərbaycan dövlətinə, bu məmləkətə, bu xalqa yönələn bütün zərbələrə qarşı öz polad sinəsini sipər etdi.

Ümummilli liderimizin şəxsiyyətinin və fəaliyyətinin mahiyyətinin dərk olunması 40 ilə yaxın müddətdə Azərbaycan ətrafında cərəyan etmiş hadisələrin təbiətinə, son dərəcə mürəkkəb problemlərin həlli yollarına işıq salır. Ulu öndərin mənalı və şərəfli ömür yolunun hər bir parlaq səhifəsi xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edir. Azərbaycanın 40 ilə yaxın tarixinin elə bir mərhələsi yoxdur ki, orada bu fenomenal şəxsiyyətin nəhəng işləri olmasın. Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli ideallara bağlı olmuşdur. Ümummilli liderimiz bütün zəngin və mənalı həyatı boyu daim xalqını, Vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir. Hər bir fərdin maraq və mənafeyini özündə yüksək səviyyədə əks etdirən Heydər Əliyev siyasi kursunun davam etdirilməsi də, bu mənada, Azərbaycanda cəmiyyətin sosial sifarişinə çevrilmişdir.

Nüfuzlu siyasi liderlər bir qayda olaraq ictimai inkişafın ən böhranlı, dönüş anında məsuliyyəti çiyinlərinə götürərək bütöv bir xalqın, millətin xilaskarına çevrilirlər. Ulu öndərin diqqəti çəkən fitri idarəçilik keyfiyyətləri sırasında onun ən ekstremal, çətin və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə ictimai mənafeləri özündə tamamilə ehtiva edən qətiyyətli, eyni zamanda, yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti heç zaman xatirələrdən silinməyəcək. Öz liderinin müdrik, uzaq hədəflərə hesablanmış, qətiyyətli və çevik addımlar atmaq əzmindən yetərincə xəbərdar olan Azərbaycan xalqı ən çətin, mürəkkəb vəziyyətlərdə belə arxayınlıq hissini itirmirdi. Təkcə bu səbəbdən ki, baş qaldıran təhlükələr, həyatın bu və digər mürəkkəblikləri Heydər Əliyev şəxsiyyətinin əzəməti qarşısında son dərəcə bəsit görünürdü. Azərbaycan insanı ilahi bir əminliklə öz liderinin ən çətin dövlətçilik sınaqlarından üzüağ çıxacağını düşünür, bu fövqəl şəxsiyyətin çətin situasiyalar üzərində növbəti zəfərini alqışlamağa hazırlaşırdı. Tale 1993-cü ildə Azərbaycan xalqını növbəti dəfə çətin sınaqlarla üz-üzə qoyanda xalqın yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də məhz bu gerçəklikdən qaynaqlanırdı.

Ümummilli liderimiz xalqın çağırışına müsbət cavab verərək, Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürərək onun sürətli icrasına başlamışdır. Üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə cəsarətlə sinə gərərək, fədakarlıq, işgüzarlıq, mübarizlik, əyilməz iradə, dəmir məntiq, özünəinam və siyasi uzaqgörənlik kimi fövqəl keyfiyyətlərdən məharətlə bəhrələnən Heydər Əliyev xalqımızı vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtarmış, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ümummilli liderimizin siyasi cazibəsi, fenomen yaddaşı, iti məntiqi, gərgin siyasi vəziyyətlərdən ustalıqla çıxmaq bacarığı, mürəkkəb siyasi situasiyalarda qərar vermək qabiliyyəti, uzaqgörənliyi, intellektual gücü, sabaha analitik baxışı, sərt və həm də qayğıkeş rəhbərlik xüsusiyyəti, cəmiyyətin siyasi, iqtisadi və mənəvi tarazlığını saxlamaq səriştəsi onun siyasi portretinin parlaq cizgiləri kimi təcəssüm olunmuşdur.

Müstəqil Azərbaycan dövlətinin təşəkkül tapmasında, şübhəsiz ki, ən böyük xidmət ümummilli lider, dünya miqyaslı dahi şəxsiyyət Heydər Əliyevə məxsusdur. Bugünkü azad və suveren Azərbaycan ulu öndərin şah əsəridir. Ölkə məhz onun müəyyən etdiyi siyasi kursla irəliyə doğru davamlı uğurlu addımlar atır. Azərbaycanın ən yeni tarixinin 40 ilə yaxın bir mərhələsi Heydər Əliyevin titanik fəaliyyəti ilə bağlıdır. Ulu öndər Heydər Əliyev şəxsiyyətinə ehtiram və ümumxalq sevgisi əbədidir.

Heydər Əliyev sanki dünyaya elə xalqı üçün, onun səadətə yetişməsi üçün gəlmişdi. Haqqın, ədalətin bərpası, ölkənin inkişaf etdirilib sivil cəmiyyətə çevrilməsi üçün çəkdiyi min bir əziyyət onun tale yolu, ömür yolu olmuşdur. Qısa zaman kəsiyində ulu öndər respublikanı yetərincə tanıdaraq ona iqtisadi və siyasi nüfuz qazandırmışdır. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır. Ulu öndər həyatı boyu həmişə xalqa arxalanmışdır: “Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib”.

Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Ulu öndərin Azərbaycanla, xalqla bağlı arzuları bitib-tükənməz, Vətənə xalqa olan məhəbbəti hədsiz-hüdudsuz idi. Onun ürəyi Azərbaycan qədər geniş idi. O, dünyanın hansı ölkəsinə gedirdisə, Azərbaycanı, onun problemlərini də ürəyində aparırdı. Heydər Əliyev Vətən üçün, xalq üçün doğuldu. Vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün çalışdı. Müqəddəs amalları və fəaliyyəti ilə xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir... Ümummilli lider əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. O, respublikaya rəhbərlik etdiyi uzun illər ərzində gördüyü nəhəng işləri ilə xalqın qəlbində özünə əbədi abidə ucaldıb. Ona görə də nə qədər Müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Bu isə əbədiyyət deməkdir. Dahi və əzəmətli şəxsiyyətin yolunun davamı müstəqil Azərbaycan dövlətinin gələcəyi, onun daha da güclənməsi, ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaş üçün firavan və rahat həyat şəraitinin yaradılması deməkdir. Heydər Əliyevin başladığı işləri davam etdirmək, qurduğu dövləti yeni-yeni uğurlara çatdırmaq onun ruhu qarşısında ən ümdə borcumuzdur. Bu gün hər bir Azərbaycan vətəndaşı dərin iftixar hissi ilə qeyd edir ki, müstəqil Azərbaycan dövləti ümummilli liderimizin şah əsəridir, onun öz xalqı qarşısında tarixi xidmətidir. Məhz buna görə Heydər Əliyevin adı tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır.

Azərbaycan - Heydər Əliyev əsrlər boyu qoşa səslənəcəkdir. Onun nurlu xatirəsi qəlbimizdə, yaddaşlarda əbədi yaşayacaqdır. O, bizim üçün həmişə əziz olub, əziz olaraq da qalacaqdır. Ulu öndər nurlu bir müdriklik simvoluydu. Dahi və bənzərsiz şəxsiyyət Azərbaycanın parlaq günəşidir. Bu günəşin saçılan şüaları isə onun işıqlı ideyalarıdır. Bu şüalar həyatımızın bütün sahələrinə işıq salır, bizə yol göstərir. Bir sözlə, Azərbaycanı inkişaf etdirən, ona beynəlxalq aləmdə nüfuz qazandıran Heydər Əliyev siyasəti uğurlu sabahımızın, xoşbəxt gələcəyimizin təminatçısıdır.

Ümummilli liderimiz bu gün cismən aramızda olmasa da, təsəllimiz odur ki, Heydər Əliyevin sönməz ideyalarının davamçısı olan layiqli siyasi varis, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında gələcəyə addımlayırıq. Bu isə o deməkdir ki, dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində aparıldığı göz qabağındadır. İndi bu siyasət qloballaşan bəşəriyyətin tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyevin adı bu gün sözün həqiqi mənasında Azərbaycan dövlətinin rəmzi kimi səslənir. Bugünkü güclü, qüdrətli Azərbaycanı o öz zəkası, qüdrəti ilə yaradıb, onun müstəqilliyini yaşadıb, inkişaf etdirib, bütün dünyaya tanıdıb. Ümummilli liderimiz ölkəmizin siyasi, sosial-iqtisadi konsepsiyalarını işləyib hazırlayıb, onların dönmədən həyata keçirilməsini təmin edib. Təsadüfi deyil ki, Heydər Əliyevin adı həmişə lider ifadəsi ilə birgə çəkilir. 1969-cu ildən ömrünün sonunadək Azərbaycanın siyasi, iqtisadi, mədəni həyatı xarizmatik liderliyinin təsiri altında olub.

Müstəqil Azərbaycanın inkişafında müstəsna rolu olan Yeni Azərbaycan Partiyasının yaradılması da ümummilli liderimizin xalqı qarşısında əvəzsiz xidmətlərindəndir. Ulu öndərin 1992-ci ildə hələ Naxçıvanda ikən Azərbaycan ziyalılarının böyük bir hissəsinin çağırışına səs verərək Yeni Azərbaycan Partiyasını yaratması zərurətdən doğan bir hadisə kimi ölkəmizin taleyində önəmli rol oynadı.

Təsadüfi deyil ki, 1992-ci ilin sonlarında, 1993-cü ilin əvvəllərində o vaxtkı iqtidarın bütün təzyiq və maneələrinə baxmayaraq Bakıda və Azərbaycanın digər bölgələrində YAP-ın ilk təşkilatları formalaşdı. Heç bir il keçmədən Yeni Azərbaycan Partiyası və onun dahi rəhbəri, lideri Heydər Əliyev respublikamızda yaranmış siyasi-iqtisadi, sosial böhranın, vətəndaş müharibəsinin aradan qaldırılması vəzifəsini öz üzərinə götürdü. YAP-ın gücü dünya səviyyəli siyasi-ictimai xadim Heydər Əliyevdə, bu dahi şəxsiyyətə sonsuz ümumxalq məhəbbətində öz təcəssümünü tapmışdı. Odur ki, qısa zamanda onun sıraları mətin, vətənpərvər insanlar hesabına yüz minləri keçdi, monolit və sarsılmaz qüvvəyə çevrildi.

Bu gün Yeni Azərbaycan Partiyası regionumuzun yeni praqmatik lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni, daha yüksək zirvələri fəth etməyə doğru inamla irəliləyir. Yeni Azərbaycan Partiyasının rəhbərliyi partiyanın daim yeniləşməsinə və güclənməsinə mühüm önəm verir. Çünki bu partiya, eyni zamanda, Heydər Əliyev siyasi irsinin ideoloji bazasını təşkil edən güc mərkəzidir.

Tam əminliklə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir, Azərbaycan xalqını daha böyük qələbələrə aparır. Bu gün hər bir azərbaycanlının qəlbində Heydər Əliyev sevgisi dünənkindən daha güclüdür, daha parlaqdır. Nə qədər ki bu vətən var, Heydər Əliyev yaşayacaqdır, nə qədər ki Odlar yurdu Azərbaycan var, ürəklərdə Heydər Əliyev məhəbbəti daha da alovlanacaqdır!

**Vəli ALBƏNDOV,**
**“Qarabağ-E.R” MMC-nin baş direktoru, əməkdar mühəndis,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**

# Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir

**Azərbaycanda milli şüurun və milli özünüdərkin bütün formalarının böyük vüsət almasına imkan verən sürətli inkişaf strategiyasının seçilməsi, uğurla həyata keçirilməsi dahi Heydər Əliyevin adı ilə bağlıdır. İstehsal, elm, mədəniyyət, Azərbaycan dilinin inkişafı sahəsində əldə edilmiş tərəqqi milli ruhun yüksəlməsinə, milli özünüdərkin və milli qürurun inkişafına, gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən uzaqgörən planın tərkib hissələri olmuşdur. Həmin mərhələnin əsas məqsədi Azərbaycanda hərtərəfli iqtisadi, siyasi, sosial-mədəni inkişaf zəminində xalqın mübarizlik ruhunu və əzmini gücləndirmək idi.**

Təəssüf ki, bu proses respublikamız üçün olduqca məsuliyyətli, taleyüklü bir məqamda müntəzəm, fasiləsiz xarakter ala bilməmiş, Azərbaycan rəhbərliyində, sözün tam mənasında, güclü şəxsiyyətin, ümummilli liderin olmaması ölkəmiz və xalqımız üçün olduqca ağır nəticələrə gətirib çıxarmışdır.

Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkə əhalisinin rifahının və təhlükəsizliyinin təmin edilməsi kimi mühüm vəzifələr dururdu. Bütün bunlar düşünülmüş, ardıcıl, məqsədyönlü daxili və xarici siyasətin həyata keçirilməsini, bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Lakin ölkənin siyasi həyatında cərəyan edən hadisələr, hakimiyyət uğrunda silahlı mübarizə, rəhbərliyin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır təhlükə yaradırdı. Azərbaycanda müstəqil dövlət quruculuğu ardıcıl və məqsədyönlü proses olaraq, əslində 1993-cü ildə ulu öndərimizin hakimiyyətə qayıdışından sonra, xüsusilə oktyabr ayından başlamışdır. Həmin tarixdən başlayaraq Azərbaycanda əldə olunmuş müstəqilliyin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərilmişdir. Dövlətçilik üçün ciddi təhlükə törədən silahlı birləşmələr ləğv edildikdən və dövlət orqanlarında müəyyən idarəçilik təcrübəsinə malik olan adamların bilik və qabiliyyətindən optimal surətdə istifadə olunduqdan sonra daxili sabitlik dövrü başlandı ki, bu da quruculuq işləri üçün ilkin zəruri şərait yaratdı.

Gənc, müstəqil dövlətin keçdiyi inkişaf yolunun zaman baxımından mərhələləri ilə dövlət quruculuğunun istiqamətləri arasında sıx dialektik əlaqə vardır. Təbii ki, dövlət quruculuğu heç də sadəcə dövlət idarəçilik orqanlarının formalaşması ilə başa çatmır. Sözün geniş mənasında, müstəqil dövlətin qərarlaşması onun öz maraqlarına və beynəlxalq siyasi reallıqlara uyğun müstəqil xarici və daxili siyasət xəttinin formalaşmasını, uzunmüddətli proqnoz əsasında müəyyənləşmiş inkişaf strategiyasının yaradılmasını və həyata keçirilməsini nəzərdə tutur.

Azərbaycanda demokratikləşmə, hüquqi dövlət quruculuğu öz xüsusiyyətləri ilə fərqlənir desək, səhv etmərik. Ölkəmizdə aparılan hüquqi islahatlar ciddi konsepsiyaya söykənir və onun əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, eyni zamanda, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanır.

Ulu öndərin həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və mübaliğəsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələrindəndir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu əsrlər boyu unudulmayacaqdır. Azərbaycanın hər bir bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri var. Ulu öndər həyatı boyu həmişə xalqına arxalanıb və bunu fəxrlə bəyan edib: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Müstəqil Azərbaycan dövlətinin üzləşdiyi sınaqlar, dövlətimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Ulu öndərin Azərbaycanla, xalqıyla bağlı arzuları bitib-tükənməz, Vətənə, xalqa olan məhəbbəti hədsiz idi.

O, təkcə öz ömrünün müdriklik zirvəsinə deyil, həm də bütöv bir xalqın tarixinin zirvəsinə ucalmışdı. Bu zirvədən yalnız bu nəhəng insanın yaşadığı illər deyil, xalqın dünəni, bu günü və sabahı görünür. Ona görə də bu tarixi şəxsiyyətin fəaliyyətinin hər bir səhifəsi son əlli illik tarixin mərhələləri ilə üst-üstə düşür. Ümumiyyətlə, tariximizi Heydər Əliyevdən ayrı təsəvvür etmək mümkün deyil. Dünya siyasəti meydanında cərəyan edən proseslərə təsir baxımından ulu öndərimiz həmişə öz sözü, öz sanbalı ilə seçilmişdir. Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitib-tükənməyən enerjisi xalqımızı daim yaradıcılıq uğurlarına ruhlandırmışdır.

Azərbaycanın dövlət müstəqilliyi, xalqımızın öz azadlığına qovuşması, əldə olunan bütün yeniliklər parlaq düha sahibi Heydər Əliyevin adı və şəxsiyyəti ilə qırılmaz tellərlə bağlıdır.

Əziz xatirəsini həmişə dərin hörmət və ehtiramla yad etdiyimiz ümummilli liderimizin dərin zəkası, uzaqgörənliyi sayəsində respublikamız ən çətin məqamlarda özünün xilas yolunu tapmış, onun göstərdiyi yolla gedərək ən çətin siyasi və iqtisadi böhranların məngənəsindən qurtarmışdır. İndi əbəs yerə demirlər ki, müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir. Ulu öndərin xalq qarşısında göstərdiyi misilsiz xidmətləri sadalamaqla qurtarmaz. Eyni zamanda, Heydər Əliyevi olduğu kimi təsvir etməyə bəlkə sözün də qüdrəti çatmaz. Burada böyük həqiqət vardır, respublikamızın hər bir vətəndaşının, xaricdəki minlərlə soydaşımızın, hətta əcnəbi dostlarımızın qəlbində Heydər Əliyev olduğu kimidir, o öz nəhəngliyi ilə daim gözlərimiz önündə canlanır, onun parlaq ideyaları həmişə yollarımızı işıqlandırır.

Azərbaycan xalqının böyük oğlu, görkəmli ictimai-siyasi xadim olan Heydər Əliyev uzun illər respublikamıza rəhbərlik etdi, hətta yüksək təşkilatçılıq bacarığı nəticəsində dünyanın superdövləti olmuş keçmiş SSRİ-nin rəhbərlərindən biri oldu. Yaşlı və orta nəslin nümayəndələri yaxşı xatırlayırlar ki, Heydər Əliyev o zaman yüz milyonlarla əhalinin sevimlisi olmuşdu, keçmiş çoxmillətli İttifaqın vətəndaşları onu böyük məhəbbətlə sevirdi. Hamı bilir ki, ötən əsrin ortalarında mərkəzi hakimiyyətin ən məsul vəzifə kürsüsündə əyləşən bəzi şəxslər xalqımıza qarşı elə də isti münasibət bəsləmirdilər, ona görə də respublikamız daim geridə qalırdı, insanların həyat şəraiti digər respublikalardakına nisbətən aşağı səviyyədə idi. Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı vaxtdan ölkəmizdə hər şey dəyişdi, irəliyə doğru sıçrayış baş verdi. O, xalqımızın iradəsi əleyhinə yönəldilmiş bütün cəhdləri qətiyyətlə rədd etdi, millətlərin, etnik azlıqların respublikada bərabər hüquqlar əsasında yaşamaq haqqını təmin etdi. Ulu öndərimiz bununla Kremli özünə nümunə göstərdi, bir sıra rəhbərlər nəticədə onunla hesablaşmalı oldular. Heydər Əliyevin təkidləri nəticəsində respublikada qısa müddətdə iri sənaye müəssisələri yaradıldı, yeni mədəniyyət ocaqları fəaliyyətə başladı, yaşayış binaları, yollar, körpülər inşa edildi, insanların yaşayış səviyyəsi qat-qat yüksəldi, Azərbaycan dinamik inkişaf və tərəqqi yoluna qədəm qoydu. Milli dövlətçilik ənənələrimizin təşəkkülü ötən əsrin son onilliklərində elə bir səviyyəyə yüksəldi ki, bunu əsl qəhrəmanlıq adlandırmaq olar. Bu dövrü Azərbaycanın intibahı dövrü kimi qiymətləndirənlər heç də yanılmırlar. Heydər Əliyev, sözün həqiqi mənasında, xalqımızın inkişaf yolunda yeni bir mərhələnin təməlini qoydu, ömrünün sonuna kimi bu yolda zəkasını, biliyini, həyatını əsirgəmədi.

Bütün bunlar, şübhəsiz, Azərbaycanın gələcək müstəqilliyinə hesablanmış siyasət, düşünülmüş addımlar idi. Heydər Əliyev Sovet rejimi illərində xalqının gələcəyini düşünürdü, bilirdi ki, bir vaxt gələcək, Azərbaycan müstəqilliyinə qovuşacaq, bunun üçün isə möhkəm təməl olmalıdır. Qətiyyətlə söyləmək olar ki, Azərbaycanın bugünkü iqtisadi inkişafı o vaxt Heydər Əliyevin yaratdığı möhkəm təmələ söykənir.

Təəssüf ki, müstəqilliyimizin ilk illərində səriştəsiz rəhbərlərin günahı üzündən böyük zəhmət bahasına yaradılmış bu təmələ ağır zərbə vuruldu. Hətta bəzi üzdəniraq qüvvələr Heydər Əliyevin doğma xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdışına qarşı çıxırdılar, onun Bakıya gəlməsinə mane olmağa çalışırdılar. Lakin xalq öz sözünü dedi və dahi oğlunu yenidən Azərbaycanda hakimiyyətə çağırdı. Heydər Əliyevin xalqın xahişi ilə hakimiyyətə qayıdışı ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxaran siyasi böhranın, Gəncə hadisələrinin, separatçılıq meyillərin, 1994 və 1995-ci illərdə dövlət çevrilişinə yönəldilən cəhdlərin qarşısını aldı. Xalq bir nəfər kimi ayağa qalxıb ulu öndərə sipər oldu, onun arxasında durdu. Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan həmin müdhiş bəlalardan xilas oldu, ölkəmizin müstəqilliyi, əmin-amanlıq və sabitlik qorunub saxlanıldı, ölkəmizin haqq işi dünya miqyasında müdafiə edildi.

Bu gün dərin iftixarla söyləmək olar ki, milli-siyasi məngənələr arasında sıxılan Azərbaycan məhz ümummilli liderimizin gərgin zəhməti, uğurlu siyasəti sayəsində nicatını tapdı, bundan sonrakı illər də onun siyasətinin nə qədər doğru olduğunu bir daha təsdiqlədi. İndi respublikamızın hər sahədə qazandığı uğurlara görə ilk növbədə Heydər Əliyev dühasına minnətdarıq.

Azərbaycan xalqının keçdiyi tarixi mərhələlərdə Heydər Əliyev kimi unikal, fenomenal, bənzərsiz dövlət xadiminə rast gəlmirik. O, ən humanist, ən demokratik ideyaları özündə ehtiva edən və bunu israrla həyata keçirən dahi rəhbər idi. Ulu öndərimiz doğma xalqın milli şüurunu dirçəldərək, onda gələcəyə tükənməz ümidlərlə baxmaq vərdişi yaratdı. Heydər Əliyev Azərbaycan xalqının malik olduğu potensialın, enerjinin daşıyıcısı olmaqla bu keyfiyyətlərin parlaq nümunəsi oldu. Məhz həmin keyfiyyətlər demokratik, hüquqi, dünyəvi dövlətin bərqərar olmasında və inkişafında mühüm rol oynadı.



Heydər Əliyev ölkəmizin müdafiəsinin gücləndirilməsi qayğısına qalırdı, bu işi dövlətçiliyin qorunmasında ən mühüm amillərdən biri, bəlkə də başlıcası hesab edirdi. İndiki şəraitdə bu məsələ daha aktual xarakter almışdır və getdikcə daha fəal yanaşma tələb edir. Regiondakı qeyri-sabit şərait, torpaqlarımızın bir hissəsinin hələ də işğalçı qüvvələrin əlində qalması həmin məsələnin nə qədər mühüm olduğunu bir daha gündəmə gətirir. Buna görə də ölkəmizdə milli ordu quruculuğu prosesi uğurla davam etdirilir. Vətəndaşlarımız bilirlər ki, silahlı qüvvələrimizin yüksəlişi ölkə başçısının yaxından göstərdiyi diqqət və qayğının bəhrəsidir.

Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan ordusu kifayət qədər güclüdür, ölkənin sərhədlərini qorumağa, işğalçı qüvvələri ərazilərimizdən qovub çıxarmağa hər an hazırdır. Bununla yanaşı, ordumuzun möhkəmləndirilməsi prosesi bundan sonra da davam etdirilməlidir. Başlıca vəzifələrdən biri ordunun kadr potensialının gücləndirilməsi, onun sıralarına mətin və cəsur, hər cəhətdən güclü, Vətənə sadiq, torpağa bağlı olan gənclərin göndərilməsidir.

Bütün şüurlu həyatını ölkəmizin çiçəklənməsinə həsr etmiş Heydər Əliyevin müqəddəs ideyaları artıq neçə illərdir ki, bu siyasi kursun ən layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Prezidentin amalı, əqidəsi və ən başlıca məqsədi xalqa, dövlətə sədaqətlə xidmət etmək, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaqdır. Dövlətimizin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında misilsiz dəyişikliklər baş vermişdir. Bunun üçün Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının həyata keçirilməsinin yekunlarına diqqət yetirmək kifayətdir. Bu illər ərzində iqtisadiyyatın inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması, şəhər və kəndlərin abadlaşdırılması və müasirləşdirilməsi sahələrində möhtəşəm nailiyyətlər qazanılmışdır.

Cənab İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, qeyri-neft sektorunun inkişaf etdirilməsi qarşıdakı illərdə də prioritet olacaq, əhalinin sosial rifah halının yüksəldilməsi davamlı şəkildə aparılan islahatların əsas mahiyyətini təşkil edəcəkdir.

Bir çox beynəlxalq və regional layihələrin həyata keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuz qazanmasına səbəb oldu. Tarix ona fenomenal qabiliyyət bəxş etmişdi. ümummilli lider Heydər Əliyevin reallaşdırdığı layihə və proqramlar xalqın gələcəyinə hesablanmışdı və zaman göstərdi ki, bunlar əfsanə yox, bir həqiqətdir. Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycanın dövlət müstəqilliyi dönməz xarakter almış, həyatımızın bütün sahələrində köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmiş, ölkəmiz dünya birliyinin tərkib hissəsinə çevrilmiş, böyük nüfuz qazanmışdır.

Azərbaycanın əldə etdiyi uğurların təməlində Heydər Əliyev dühası, onun müqayisəyəgəlməz siyasi və dövlətçilik təcrübəsi dayanıb. Heydər Əliyev ideyaları müqəddəsdir və daim yaşayacaqdır. Heydər Əliyev əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi, iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş Azərbaycanı bəxş etdi.

Zəmanəmizin ən nəhəng siyasətçilərindən sayılan bu dahi şəxsiyyətin ölkəmizin tərəqqisində və inkişafındakı rolu danılmazdır.

Heydər Əliyevin siyasi kursu Azərbaycana bütün sahələrdə böyük uğurlar gətirib. Sabitlik, demokratiya və tərəqqi son illərimizi xarakterizə edən mühüm amillərdir. Bu müdrik siyasət nəticəsində Azərbaycan artıq dünyada tanınır, nüfuzu durmadan yüksəlir. Artıq dünya da ölkəmizlə hesablaşır, irimiqyaslı beynəlxalq layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Dövlətin əsas göstəricilərindən biri olan iqtisadiyyatda aparılan köklü islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində bu sahənin yüksəlişini təmin etmişdir.

Biz bu gün ulu öndərimizi xatırlayır, iftixarla deyirik ki, Azərbaycanın ümummilli lideri, Azərbaycan dövlətinin xilaskarı və müasir Azərbaycanın memarı Heydər Əliyev bizim qəlbimizdə daim yaşayır və yaşayacaq. Gələcək nəsillər onun həyat yolunu araşdıracaq və öyrənəcəklər.

**Əli HÜSEYNOV,**
**Ağsu Rayon Mərkəzi Xəstəxanası baş həkiminin müavini,**
**YAP Ağsu rayon təşkilatının sədri,**
**"Tərəqqi" medallı.**

# Əbədiyaşar lider

**Müasir Azərbaycan xalqının azadlığı və uğur tarixi dahi şəxsiyyət Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Müstəqil Azərbaycanın xilaskarı və memarı, ümummilli liderimiz Heydər Əliyevin əsas məqsədi ölkəni güclü, demokratik dövlətə çevirmək və doğma xalqına firavan həyat bəxş etmək idi. Ulu öndər öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş, xalqımızın tarixi və taleyində silinməz izlər qoymuşdur. 1993-cü ildə yenidən ölkə rəhbərliyinə qayıdan öz xalqının böyük oğlu müdrik siyasəti, dönməz əqidəsi, tarixi uzaqgörənliyi ilə milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail oldu.**

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev o dövrdə ölkədə baş alıb gedən böhranın, hakimiyyətsizliyin, vətəndaş qarşıdurması və digər xoşagəlməz halların qarşısını aldı. Qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, Azərbaycanı bir dövlət kimi məhv olmaqdan, onu gözləyən real təhlükələrdən xilas etdi. Ulu öndər qısa bir müddətdə sabitliyi bərpa etdi, siyasi və iqtisadi böhran aradan qaldırıldı, ölkəmiz inkişaf və tərəqqi yoluna qədəm qoydu, geniş islahatlar dönəmi başladı. Bu gün fəxrlə qeyd edirik ki, son illərdə Azərbaycanın bütün sahələrdə əldə etdiyi möhtəşəm uğurlarının təməlində o dövrdə Heydər Əliyevin həyata keçirdiyi tədbirlər, gərgin əməyi, iqtisadi islahatlar dayanır.

Ümummilli liderimizin dövlət quruculuğundakı xidmətləri də əvəzsizdir. Heydər Əliyev demokratik və hüquqi islahatlarını ardıcıl olaraq həyata keçirdi, insan hüquq və azadlıqlarının təminatı məsələlərinə xüsusi diqqət yetirdi. Onun rəhbərliyi ilə hazırlanaraq, dünyada mövcud olan ən mütərəqqi hüquqi normaları özündə əks etdirən, 1995-ci ilin 12 noyabrında ümumxalq referendumu yolu ilə qəbul olunmuş Azərbaycanın ilk Milli Konstitusiyası ölkənin gələcək inkişaf istiqamətlərini müəyyən etmişdir. Yeni Konstitusiyanın qəbulundan sonra müstəqil Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, söz azadlığı, demokratik prinsiplər uğurla davam etdirildi. Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi. Bir sözlə, mənəvi sərvətlərimizə, dinimizə, tarixi irsimizə hörmət dövlət səviyyəsinə qaldırıldı. Bununla da milli dövlətçilik, demokratiya və dünyəvilik kimi ümumbəşəri dəyərləri özündə ehtiva edən yeni milli ideologiyanın möhkəm əsası qoyuldu.

Ulu öndərin həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və ən şanlı səhifələrindəndir. Heydər Əliyev şərəfli fəaliyyətində öz doğma xalqına arxalandığı kimi, xalq da öz taleyini ona etibar edirdi. Bu inamın nəticəsidir ki, ölkəmiz öz müstəqilliyini əldə etdikdən sonra ən ağır günlərində xalq yalnız ona pənah aparmışdı. Böhranlı məqamlarda xalqının səsinə səs vermiş, ölkəni müstəqilliyini yenidən itirmək təhlükəsindən xilas edərək onu sabit və inkişaf edən ölkəyə çevirmişdi. Heydər Əliyev həmişə xalqa arxalanıb. O, bu barədə deyib: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Dahi Heydər Əliyevin titanik fəaliyyətinin digər ən mühüm nəticəsi Azərbaycanın beynəlxalq aləmdə özünəlayiq yer tutması, dünyanın ən inkişaf etmiş dövlətləri ilə ikitərəfli əlaqələr çərçivəsində bərabərhüquqlu əməkdaşlığa nail olmasıdır. Təsadüfi deyil ki, bu gün müstəqil ölkəmiz BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər mötəbər qurumların üzvüdür. Dövlətimiz NATO və Avropa Birliyi ilə səmərəli və işgüzar əlaqələr qurub. Bu səbəbdəndir ki, müstəqil Azərbaycan dünya miqyasında etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə kimi tanınır.

Heydər Əliyevin Azərbayana rəhbərliyinin hər iki dönəmində bütün sahələrdə olduğu kimi ölkə təhsilinin inkişafı, onun beynəlxalq tələblər səviyyəsində olması üçün mühüm tədbirlər həyata keçirmişdir. Ulu öndərimiz ölkənin milli təhsil sisteminə həmişə böyük əhəmiyyət vermiş və xüsusi diqqət və qayğı göstərmişdir. O, cəmiyyətimizin bütün sahələrinin təhsilə əsaslandığını vurğulayır və qeyd edirdi ki, ölkə iqtisadiyyatını inkişaf etdirmək üçün birinci növbədə güclü kadr, təhsil potensialı olmalıdır. Çünki millətin gələcəyi onun təhsili ilə sıx bağlıdır. "Mən müəllimdən şərəfli bir peşə tanımıram" kimi müdrik aforizmləri də milli təhsilimizə verilən yüksək dəyərin əyani təzahürüdür. "Hər bir ölkənin inkişafı onun təhsilinin səviyyəsi ilə bağlıdır," - deyən ulu öndər "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyası yaradılması haqqında" sərəncam imzaladı və bu komissiya tərəfindən qısa müddət ərzində "Azərbaycan Respublikasının təhsil sistemində islahatlar proqramı" hazırlandı və dövlət başçısı tərəfindən imzalandı. Onun ölkəmizə rəhbərliyi dövründə yeni məktəblərin tikintisi, ümumtəhsil ocaqlarının, yeni milli dərsliklərin yaradılması istiqamətində ciddi addımlar atıldı, latın əlifbasına keçildi, məqsədyönlü aparılan təhsil islahatları milli təhsilimizin sürətli inkişafını təmin etdi.

Ölkəmizdə təhsil sahəsində milli kadrların hazırlanması üzrə mütəxəssis kontingenti yaradıldı. Heydər Əliyev qeyd edirdi: "İnsan təhsilin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır". Milli-mənəvi dəyərlərə malik, vətənpərvər nəslin yetişdirilməsi, Azərbaycanın gələcəyi üçün layiqli, hərtərəfli biliyə, savada malik vətəndaşların olması üçün yeni orta məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi geniş vüsət almışdır. Qeyd edim ki, bu gün məktəbimizin kollektivi tərəfindən uşaqların vətənpərvər ruhda böyümələri üçün mütəmadi olaraq müvafiq tədbirlər həyata keçirilir, Heydər Əliyev "Bir peşəkar", Heydər Əliyev "Lider", Heydər Əliyev "Patriot", Heydər Əliyev "General", Heydər Əliyev "Tale" və bir çox mövzularda disklərə yazılmış sənədli filmlər şagirdlərə nümayiş etdirilir ki, bu da onların milli, vətənpərvər ruhda böyüyüb təhsil almalarında çox böyük və mühüm rol oynayır.

Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatları bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ölkə başçısı tərəfindən təhsilin sürətli inkişafının təmin olunması üçün bir çox sərəmcamlar imzalanmış, Dövlət Proqramı qəbul olunmuşdur. Son illərdə dövlətimizin başçısının ölkədə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı sərəncam və tapşırıqlarına əsasən yüzlərlə yeni məktəblər tikilib istifadəyə verilmişdir. Bu gün bütün təhsil müəssisələri davamlı olaraq müasir kompüter texnologiyaları ilə təchiz olunur. Ölkə başçısı qeyd edib: təcrübə göstərir ki, məhz hansı ölkələrdə təhsilə, elmə, texniki tərəqqiyə diqqət verilirsə, o ölkələrdə inkişaf edir. Mən istəyirəm ki, uşaqlarımız milli ruhda, vətənpərvər övlad kimi böyüsünlər və təhsil-tərbiyə alsınlar, öz ənənələrimizə sadiq, hərtərəfli savada malik insanlar olsunlar. Şagirdlərimiz yaxşı məktəblərdə oxusun, müəllimlərimiz yaxşı məktəbdə dərs desinlər.

Bu gün təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsində Mehriban xanımın həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində ölkəmizdə yüzlərlə müasir tipli məktəblər tikilmiş, ehtiyacı olanlar əsaslı şəkildə təmir olunmuşdur. Onun genişmiqyaslı xeyriyyəçilik işləri, valideyn himayəsindən məhrum olmuş kimsəsiz uşaqlara himayədarlığı Mehriban xanıma cəmiyyətimizdə böyük nüfuz və hörmət qazandırmışdır. İnsanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində gördüyü işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Mədəniyyətimizə, musiqimizə qayğı daim onun diqqət mərkəzindədir. Son illər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək dövləti fəaliyyətindəki gördüyü işləri də xüsusi qeyd etmək lazımdır.

Heydər Əliyevin öz xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də müəyyənləşdirdiyi, uğurla həyata keçirdiyi sürətli inkişaf kursunu, milli inkişaf strategiyasını özündən sonra inam və ardıcıllıqla davam etdirə biləcək layiqli siyasi varis yetişdirməsidir. Heydər Əliyev 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük umidlər bəsləyirəm". Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev ulu öndərin ona olan ümidlərini layiqincə doğruldur, siyasi kursunu qloballaşan dünyanın tələblərinə uyğun olaraq uğur və ardıcıllıqla davam etdirir. Ölkəmiz bu gün cənab Prezidentin apardığı uğurlu siyasət nəticəsində sürətlə inkişaf edən dünya dövlətləri sırasındadır. Cənab İlham Əliyev ölkə rəhbəri kimi fəaliyyətə başladığı ilk gündən dəfələrlə qeyd edib ki, Azərbaycanda Heydər Əliyev siyasi-iqtisadi inkişaf kursu davam etdiriləcək, bu kursa alternativ yoxdur. Çünki bu kurs inkişaf və tərəqqi yoludur. Bu siyasi kurs Azərbaycanın müstəqilliyinə, onun əbədi və dönməz olmasına təminat verir.

Bu gün ulu öndər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan öz tarixinin ən möhtəşəm inkişaf dövrünü yaşayır. Bu uğurların təməlində isə dahi Heydər Əliyevin alternativsiz strateji siyasi kursu dayanır.

**Sədaqət ƏZİMOVA,**
**Səbail rayonu 239 saylı məktəbin direktoru.**

# SƏNAYE MÜƏSSİSƏLƏRİ QARŞISINDA MÜHÜM VƏZİFƏLƏR QOYULUR

## *Dövlət başçısı sənaye istehsalının növbəti illərdə də prioritet məsələ olduğunu bildirdi*

**Ölkəmiz dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ötən 16 il ərzində inanılmaz uğurlara nail olub. Sürətli sosial-iqtisadi inkişafın gerçəkləşməsində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan müdrik strategiyanın, cənab Prezidentin praqmatik siyasi kursu ilə ölkəmizdə məharətlə həyata keçirilməsi xüsusi önəm daşıyır. Məhz ulu öndərin respublikaya rəhbərlik etdiyi 1969-cu ildən başlayaraq Azərbaycanın bir çox sahələrində gələcək inkişafın möhkəm əsasları yaradılmışdır. Bu təməl üzərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən siyasətin uğurları isə göz qabağındadır. Ölkə həyatının bütün sahələrində, xüsusilə də iqtisadiyyatda, yeni layihələrin, dövlət proqramlarının, dərin islahatların və bu kimi digər tədbirlərin reallaşdırılması respublikamızın dinamik və dayanıqlı sosial-iqtisadi inkişafına güclü stimul vermişdir ki, əldə olunan bu və digər uğurlar Azərbaycanda Heydər Əliyev siyasətinin alternativinin olmadığının əyani təzahürüdür.**



30 aprel 2019-cu il tarixdə Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı ölkəmizdə həyata keçirilən iqtisadi siyasət çərçivəsində kompleks şəkildə reallaşdırılan islahatlara toxunaraq vurğulamışdır ki, son illərdə həm sosial, həm infrastruktur sahələrində, insanların rifah halının yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılmışdır: **"Büdcə daxilolmalarının artımı əminəm ki, ilboyu müşahidə olunacaq. Çünki aparılan islahatlar və yeni yanaşma prinsipləri bunu deməyə əsas verir... İqtisadi və sosial sahədə aparılan siyasət rəqəmlərdə də özünü büruzə verir. Beləliklə, ilin birinci rübündə ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Çünki görülən işlər bunu deməyə əsas verir. Sənaye istehsalı 4,4 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Amma bundan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Bax, gördüyümüz işlərin nəticəsi budur və sənaye istehsalının, xüsusilə qeyri-neft sektorunda sənaye istehsalının artırılması bizim siyasətimizin bariz nümunəsidir".**

Cənab Prezidentin qeyd etdiyi kimi, iqtisadiyyatın qeyri-neft sektorunda yüksək göstəricilərlə ifadə olunan inkişaf və tərəqqi xüsusilə qürurvericidir. Bu uğurlar iqtisadiyyatın inkişafının əsas indikatoru olan əsaslı kapitala yönəldilən vəsaitlərin həcmində də özünü büruzə verir. Belə ki, həmin rəqəm ötən ildəki səviyyədən 5,3% artaraq 2018-ci ilin birinci rübündəki 84,7%-dən cari ilin birinci rübündə 91%-ə yüksəlmişdir. Eyni zamanda qeyri-neft sektorunda əsas kapitala yönəldilən vəsaitlərin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 6,0% artmışdır.



Bu göstərici özlüyündə ölkə iqtisadiyyatının əsasını təşkil edən real sektorun inkişafına dövlətimizin diqqəti nəticəsində mümkün ola bilmişdir. Azərbaycanda real sektorun əhəmiyyətli hissəsi sənayenin, o cümlədən də özəl sahibkarlıq subyektləri kimi sənaye müəssisələrinin payına düşür. Ölkədə yaradılan əlverişli biznes və investisiya mühitindən bəhrələnən belə müəssisələrdən biri də "Bakı İnşaat Sənaye" Açıq Səhmdar Cəmiyyətidir. Şirkətin istehsal etdiyi dəmir məmulatların təyinatı genişdir, burada həm tikinti, həm neft-qaz sektorunda, həm də geniş təsərrüfat spektrini əhatə edən məhsullar istehsal olunur. Yüksək keyfiyyətli, ixracyönümlü məhsulun buraxılışı ilə diqqət çəkən müəssisədə 500-dən artıq iş yeri yaradılmışdır.

**"Bakı İnşaat Sənaye" ASC-nin əldə etdiyi uğurlar haqqında danışan cəmiyyətin idarə heyətinin sədri Ramiz Əhmədov** deyir ki, cənab Prezident İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasət, respublikamızda əlverişli investisiya şəraiti yaratmaqla bərabər, özəl sahibkarlığın inkişafı üçün geniş üfüqlər açmışdır: "Bu gün özəl sahibkarlıq öz dövlətinə güvənir. Bu qarşılıqlı inam Azərbaycanda bir çox sahələrdə olduğu kimi, qeyri-neft sektorunun, sənayenin, özəl sahibkarlıq sferasının sürətli inkişafını şərtləndirmiş oldu. Aprelin 30-u dövlət başçısının sədrliyi ilə baş tutmuş Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda cənab Prezidentin nitqi kollektivimizdə geniş müzakirə olunmuşdur. Dövlət başçısı xüsusilə qeyd etmişdir ki, əsas məqsədimiz, əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır. Cənab İlham Əliyev demişdir: "Əgər əvvəlki illərdə daha çox neft-qaz sektoruna sərmayə qoyuluşu təmin edilirdisə, hazırda biz bunu qeyri-neft sektorunda görürük və bu da aparılan işlərin nəticəsidir. Çünki Azərbaycanda biznes mühiti yaxşılaşır, sərmayə qoyuluşu üçün daha yaxşı şərait yaradılır, həm yerli, həm xarici sərmayələr dövlət tərəfindən lazımi səviyyədə qorunur".

Biz bir daha əmin oluruq ki, dövlətimiz hər zaman olduğu kimi, bu gün də özəl sahibkarlığın inkişafını təmin edən şəraitin daha da inkişaf etdirilməsi istiqamətində mühüm islahatları davam etdirir. Bu da bizi daha da ruhlandırır, yeni-yeni uğurlara nail olmağa sövq edir.

Rəhbərlik etdiyim müəssisə fəaliyyətə 2002-ci ildən başlayıb. Təsisçisi və qurucusu Loğman Zülfüqarlıdır. "Bakı İnşaat Sənaye" ASC ötən bu 17 il ərzində istehsal həcmini dəfələrlə artırmağa nail olmuş, yeni iş yerlərinin açılmasında, ABŞ, Avropa və Türkiyə avadanlıqlarının və bununla bərabər, ən mütərəqqi istehsal texnologiyalarının tətbiqində, ixracyönümlü məhsulun istehsalında uğurlar əldə etmişdir.

Gördüyünüz kimi, müəssisədə yeni metal-poladəritmə sahəsi yaradılıb, induksiya sobaları, fasiləsiz tökmə xətti istismara verilib. 2017-ci ildə "Bakı İnşaat Sənaye" ASC İqtisadiyyat Nazirliyindən investisiya təşviqi sənədi almışdır ki, bu da tərəfimizdən həyata keçirilən layihələrin uğur qazanmasında böyük önəm daşıyır. Belə ki, bu sənəd xaricdən gətirilən yüksək texnoloji avadanlıqlara ƏDV və idxal rüsumlarının tətbiqindən şirkətimizi azad edir, yeddi il ərzində isə yeni yaradılan istehsal sahələri mənfəət vergisindən 50% azad olunur. İnvestisiya təşviqi sənədinin tətbiqi cənab Prezidentin sahibkarlığa göstərdiyi böyük qayğının və dəstəyin bariz nümunəsidir.

İxracyönümlü məhsulun istehsalı Standartlaşdırma və Metrologiya Mərkəzinin AZS milli sertifikatlaşdırma sisteminin "Uyğunluq" və "Beynəlxalq SDS" sertifikatlarında əks olunan tələblər səviyyəsində qurulub. Həmin sertifikatların müəssisəmizə verilməsi xarici bazarlarda da uğur əldə etməyimizin mühüm şərtidir.

Hazırda müəssisəmizdə 500-dən artıq işçi çalışır. Onların hər biri Azərbaycanda yaradılmış ictimai-siyasi sabitliyə, əhalinin güzəranının günü-gündən yaxşılaşdırılması istiqamətində həyata keçirilən sosialyönümlü islahatlara görə cənab Prezidentə öz minnətdarlığını ifadə edir".

**Şirkətin texniki direktoru Adilxan Musayev** bildirmişdir ki, dövlət başçısının sənayenin çoxvektorlu olması istiqamətində apardığı siyasət ağır sənayenin inkişaf etməsinə müsbət təsir göstərir: "Buraxdığımız məhsul yüksək keyfiyyətə malikdir. Texniki təhlükəsizlik və ətraf mühitin qorunmasına böyük həssaslıqla yanaşırıq. Atmosferin çirkləndirilməsinin qarşısını almaq məqsədilə şirkətimiz ən müasir texnoloji avadanlıqlar quraşdırıb. Zavodumuzda müxtəlif qalınlığa və diametrə malik su və qaz xətlərində, yüksək təzyiqli hava xətlərində uzun müddət ərzində istismar oluna biləcək borular qaynaq tikişi üsulu ilə hazırlanır. Müxtəlif ölçülü profillər isə vərəqlərdən dördkünc və düzbucaqlı şəkildə əyilərək qaynaqlanma ilə istehsal edilir. İsti yayma yolu ilə adi karbonlu poladdan dairəvi çubuqlar, dördbucaqlar, şveller və künclüklər prokat edilərək hazırlanır. Məhsulumuz beynəlxalq standartlara tam cavab verir. Hazırda ixrac etdiyimiz ölkələrin sayını artırmaq üzərində çalışırıq. Bu da istehsal olunan məhsulun çeşidinin genişləndirilməsi ilə bağlıdır. Odur ki, bu yaxınlarda müxtəlif ölçülü ikitavrların istehsalına başlamaq niyyətindəyik. Bu gün buraxılan məhsulun təqribən yetmiş faizi ixrac olunursa, bu göstəricini 80-90 faizə qədər artırmaq imkanımız var. Şirkətimizdə fəaliyyət göstərən laboratoriya da istehsal olunan məhsulun keyfiyyətinə hər an nəzarət etməyə imkan verir. Təsadüfi deyil ki, istehsal edilən məhsullarımız təkcə yaxın qonşu ölkələrə deyil, Avropa ölkələrinə də ixrac olunur".

Azərbaycan durmadan inkişaf edir. Dövlətimiz bütün istiqamətlərdə elmi cəhətdən əsaslandırılmış uğurlu islahatları davam etdirmək niyyətindədir. Sənaye potensialı haqqında danışarkən cənab İlham Əliyev demişdir: **"...Azərbaycan sənaye istehsalı sahəsində böyük işlər görməyə qadirdir. Əlbəttə ki, sənaye istehsalı növbəti illərdə bizim üçün prioritet məsələlərdən biri olacaq. Əminəm ki, həm yerli, həm də xarici sahibkarlar bu işlərə diqqət göstərəcəklər".**

Cənab Prezidentin bu fikri sənaye sektorunda çalşılan insanlar qarşısında böyük vəzifələr qoyur. Tam əminliklə söyləyə bilərik ki, bir çox qabaqcıl sənaye müəssisələrimizdə olduğu kimi, "Bakı İnşaat Sənaye" ASC-nin əmək kollektivi də gələcəyə böyük ümidlər bəsləyir, onlar Azərbaycanın dünyanın ən inkişaf etmiş ölkələri sırasına daxil olması üçün kiçik də olsa, öz töhfələrini vermək üçün inamla çalışacaqlarını bildirirlər.

**Emin QASIMOV,**
**"Respublika".**

*Energetika*

# Texniki dəyişikliklər davam edir

Azərbaycanda həyata keçirilən sürətli sosial-iqtisadi inkişaf ölkə həyatının bütün sahələrində, o cümlədən elektrik enerjisi təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına əlverişli şərait yaratmışdır. Yaradılma tarixi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan müstəqil Azərbaycanın energetika sistemi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif vaxtlarda təsdiq olunmuş Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində daha da inkişaf etdirilərək, dünya standartlarına uyğun səviyyədə yenidən qurulmaqdadır. "Azərişıq" ASC-də işlər dünya standartları səviyyəsində qurulduğundan bu gün paytaxt və regionlarda elektrik enerjisi təchizatında da mühüm irəliləyişlər müşahidə olunur, qarşıya qoyulan vəzifələr uğurla icra edilir.

Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramı strateji bir sənəddir. Vurğulamaq lazımdır ki, bu istiqamətdə Qaradağ rayonunda məqsədyönlü iş aparılır. Biz rayon Enerji Təchizatı və Satışı idarəsinin rəisi, təcrübəli energetik Zülfi Ağayevlə söhbət edərkən o, bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:

— Energetiklərimiz 2019-cu ildə ikiqat səylə çalışır, "Azərişıq" ASC-nin rəhbərliyi tərəfindən verilən tapşırıqların uğurla yerinə yetirilməsinə maksimum səy göstərir, çalışırıq ki, xidmətimiz abonentləri razı salsın.

Cari ilin birinci rübündə qazanılan nailiyyətlər təqdirəlayiqdir. Fəxrlə demək olar ki, əvvəlki illərdən fərqli olaraq energetika sektorunda mühüm irəliləyişlər müşahidə olunur, elektrik şəbəkəsi dünya standartlarına uyğun yenidən qurulur.

Rayon ərazisində əhali sektorunda 95115, qeyri-əhali sektorunda isə 2966 abonent qeydə alınmışdır. Kollektivimizin birgə səyi nəticəsində ilin birinci rübündə yığım faizi 100,6 faizlə yerinə yetirilmişdir ki, bu da çox uğurlu nəticədir.

Baş Ələtdə abonentlərə verilən enerji indiyədək dəmir yolundan qidalanırdı. Əlbəttə, bu da işdə çətinlik yaradırdı. Son dövrdə 7 ədəd KTM quraşdırılmış və əhali dəmir yol xəttindən ayrılaraq "Azərişığın" şəbəkəsinə qoşulmuş, 750 abonentin enerji təchizatı üçün əlverişli şərait yaradılmışdır. Şübhəsiz ki, bu yenilik uğurlu nəticələrə imza atılmasına şərait yaradacaqdır.

Qeyd etmək lazımdır ki, Qaradağın Səngəçal qəsəbəsində 160 ailəyə verilən enerji indiyədək dəmir yolundan qidalanırdı. Elə buna görə də son dövr bu sahədə də texniki dəyişikliklər aparılmış, 2 ədəd KTM quraşdırlmış, bir kilometr məsafəyə müasir tipli yüksək gərginlikli kabel xətti çəkilərək şəbəkəyə qoşulmuşdur. Şübhəsiz ki, bu da abonentlərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchizatına yığım faizinin maksimum səviyyəyə çatdırılmasına imkan yaradacaqdır.

Hazırda "Asan" Kommunal Mərkəzi ilə bağlanılan müqavilələr dərhal icra olunur və bu işlər uğurla davam etdirilir.



Qeyd etmək lazımdır ki, rayonun "Ümid" qəsəbəsində məcburi köçkünlər üçün tikilmiş yaraşıqlı və müasir tipli yaşayış mənzillərinə "Smart" tipli sayğacların quraşdırılması uğurla həyata keçirilir. Energetiklərimizin birgə səyi nəticəsində qısa vaxtda 300 sayğac quraşdırılmışdır.

Zülfi Ağayev son olaraq vurğuladı ki, 2019-cu ildə qarşıya qoyulan vəzifələr uğurla icra olunacaqdır.

Dünyanın aparıcı şirkətlərinin istehsal etdikləri müasir avadanlıqların alınıb quraşdırılması, yüksək texnologiyaların tətbiqi müasir tədris prosesinin yaradılmasını labüd edir. Bu istiqamətdə işçi heyəti və kadr hazırlığı probleminin uğurla həll etmək, eləcə də cəmiyyətə tələb olunan təcrübəli kadr potensialını vermək üçün bir neçə il öncə "Azərişıq" ASC tərəfindən Tədris Mərkəzi yaradılmışdır. Rayonun energetiki sistemində çalışan işçilər mütəmadi olaraq Tədris Mərkəzində təşkil edilən ixtisasartırma kurslarına göndərilir. Onlar burada elektrik şəbəkəsində istifadə olunan və gələcəkdə istifadə olunacaq müasir texniki avadanlıqların öyrənilməsi və quraşdırılmasını mükəmməl öyrənirlər.

**Söhbəti qələmə aldı:**
**Qədir ASLAN,**
**"Respublika".**

# Bərdə: Bu il də bol məhsul gözlənilir

**Son illərdə ölkədə qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişaf etdirilməsi istiqamətində dövlət başçısı İlham Əliyevin imzaladığı fərman və sərəncamlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi respublikanın hər yerində olduğu kimi, Aran Qarabağın inkişaf etmiş rayonlarından olan Bərdədə də geniş vüsət almışdır. Rayonda yaradılan münbit şərait nəticəsində ilbəil ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalında dinamik artım müşahidə olunur. Hər il minlərlə ton keyfiyyətli kənd təsərrüfatı məhsulları daxili bazarlarda bolluq yaratmaqla yanaşı, xarici bazarlara da ixrac olunur. Ötən il Bərdə rayonu pambıq, dənli bitkilər, şəkər çuğunduru, ət məhsulları və başqa məhsulların istehsalı üzrə respublikada qabaqcıl yerlərdə qərar tutmuşdur. Cari ildə bu ənənəni qoruyub saxlamaq üçün bütün imkanlardan maksimum istifadə olunur. Əkinsəpin optimal müddətdə başa çatdırılaraq yüksək aqrotexniki qulluq göstərilir.**

Aqrar sahənin hazırki vəziyyəti ilə tanış olmaq üçün Bərdə Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Vüqar İsmayılovla həmsöhbət olduq. Söhbət zamanı V.İsmayılov bildirdi ki, 2018-ci ildə 13858 ha sahədə dənli və dənli paxlalı bitkiləri əkilmiş, hər hektardan 40,5 sentner olmaqla, 56112 ton məhsul istehsal olunmuşdur. Bu da 2017-ci illə müqayisədə 2648 ton artıq məhsul deməkdir. Buğda əkini üzrə 11230 ha sahədə 46441 ton məhsul istehsal olunmuşdur, orta məhsuldarlıq 41,8 sentner olmuşdur. Arpa məhsulu isə 2628 ha sahədən 9171 ton məhsul istehsal olunmuşdur. Ötən il kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsindən 2336327 manat məbləğində subsidiya verilmişdir.

Məlumdur ki, Bərdə rayonu pambıqçılığın yüksək təşəkkül tapdığı bölgələrdən biridir. Ötən il pambıqçılıqda yüksək nailiyyətlər əldə olunmuşdur. Belə ki, 9630 ha sahədə pambıq əkilmiş, yüksək aqrotexniki qulluq göstərilərək 25371,6 ton məhsul istehsal olunmuşdur ki, bu da hər hektardan 26,4 sentner məhsul deməkdir. Pambıq istehsalı ilə məşğul olan fermerlər istehsal edib tədarük məntəqəsinə satdıqları xam pambığın miqdarına görə dövlətdən 2534183 manat məbləğində subsidiya almışlar. Son illərdə res-



publikanın hər yerində olduğu kimi, bərdəlilər də barama istehsalına həvəs göstərirlər. 2018-ci ildə kümçülər 520 qutu barama bəsləyərək 24523 kq barama istehsal edib, Şəki İpək Kombinantına satmışlar. Kümçülərə hər kq-ı 5 manat olmaqla 119730 manat məbləğində subsidiya verilmişdir. Münbit torpağa və əlverişli iqlimə malik olan Bərdədə şəkər çuğundurunun əkin sahələri də ildənilə genişləndirilir və yüksək məhsuldarlıq əldə olunur. Keçən il 410 ha sahədə şəkər çuğunduru əkilərək hər hektardan 304,6 sentner olmaqla, 12490 ton şəkər çuğunduru istehsal olunmuşdur. Bu sahədə çalışanlara subsidiya olaraq istehsal olunan məhsulun hər tonuna 4 manat olmaqla, 49460 manat pul verilmişdir. Cari ilin məhsulu üçün 11573 ha sahədə dənli bitkilər əkilmişdir. Bundan 9005 ha sahədə buğda, 2568 ha-da isə arpa əkilmişdir. Sevindirici haldır ki, normal bitiş alınmış, hazırda yemləmə gübrəsi verilmiş və birinci suvarma başa çatdırılmışdır. Alaq otlarına qarşı 7 min ha sahədə mübarizə aparılmışdır. Müsahibim bildirdi ki, rayonda taxıl toxumçuluğu ilə məşğul olan 13 özəl fermer təsərrüfatı fəaliyyət göstərir. Toxumçular 2220 ha sahədə elit və I dənli taxıl bitkiləri yetişdirirlər.

Cari ildə rayonda pambıqçılığın əkin sahəsi genişləndirilmişdir. Belə ki, 3 pambıqçılıq şirkətində 10100 ha sahədə pambıq əkini hazırda sürətlə davam etdirilir. MKT Bərdə filialında 5370 ha "Azərpambıq" MMC-də 4370 ha və "P-Agro" şirkətində 360 ha çiyid səpini başa çatmaq üzrədir.

Bərdədə heyvandarlığın inkişafı da daim diqqət mərkəzində saxlanılır. Rayonda 140 min baş xırdabuynuzlu, 95 min baş iribuynuzlu mal-qara cəmləşmişdir. 2019-cu ilin birinci rübündə heyvanlar arasında epizodik tədbirlər aparılmışdır. İribuynuzlu mal-qarada əsasən süni mayalanmaya üstünlük verilir. Keçən il 7838 baş yerli mal cinsində süni mayalanma aparılmış, nəticədə 4570 baş buzov əldə olunmuşdur. Bu, 2017-ci illə müqayisədə 441 baş artıqdır. Bərdədə arıçılığın inkişaf etdirilməsi də daim diqqət mərkəzində saxlanılır. Hazırda 2016 yeşik arı ailəsi müxtəlif təsərrüfatlarda cəmləşmişdir. Arıçılıqla məşğul olan insanların hər biri dövlətdən hər arı ailəsi üçün 10 manat civarında subsidiya almışdır. Cəmi rayon üzrə arıçılara 20160 manat subsidiya verilmişdir.

Müsahibənin sonunda Vüqar İsmayılov əminliklə bildirdi ki, Bərdə rayonu bu il kənd təsərrüfatı məhsullarının istehsalında uğurlu nəticələrə imza atacaqdır.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# "Cənub" elektrik stansiyasında yenidənqurma işləri

Mingəçevir şəhərində yerləşən "Azərbaycan" İstilik elektrik stansiyasında ötən ilin iyul ayının 3-də baş verən qəza nəticəsində enerjisistemin çökməsi, Şirvan şəhərində yerləşən ölkənin ikinci böyük elektrik stansiyası olan "Cənub" elektrik stansiyasındakı 330 kV-luq iki avtotransformatordan birinin sıradan çıxmasına səbəb olmuşdu. Qurumun İctimaiyyətlə əlaqələr və media mərkəzindən verilən məlumatda bildirilir ki, gərginliyi 330, 220 və 6 kV-a çevirən həmin avtotransformator yerli ATEF Transformator Zavodunda təmir edilərək stansiyada yerinə quraşdırılıb. Nəticədə, 330 və 220 kV-luq şəbəkənin etibarlılığı artırılıb, həmçinin xüsusi sərfiyyatda gərginliyin səviyyəsi 6 kV-dan 6,3 kV-a qaldırılıb. Bu isə xüsusi sərfiyyat mühərriklərinin işəsalma rejimini yüngülləşdirib və ehtiyat bəsləmə sisteminin etibarlılığını artırıb.

Hazırda "Cənub" elektrik stansiyasında suduruldcu hovuz və dövran nasosları təmir edilir ki, bu da su sızmasının qarşısını almaqla etibarlılığın artırılmasını təmin edəcək. Yaxın günlərdə isə 110 kv-luq qapalı paylayıcı qurğuda bərpa işlərinə başlanılacaq.

Eyni zamanda "Cənub" elektrik stansiyasına Hacıqabul rayonunda yerləşən qazpaylayıcı stansiyadan 25 km məsafədə yeni qaz xətti çəkilir. Bu iş başa çatdırıldıqdan sonra qaz kompressorları sistemdən çıxarılacaq və onun işləməsinə sərf edilən aylıq 7 milyon kVt/s elektrik enerjisinə qənaət edilərək həmin enerji yükü ümumi sistemə ötürüləcək.

Paralel olaraq hazırda "Cənub" elektrik stansiyasından "Xırdalan" yarımstansiyasına 108 km məsafədə 220 kV-luq yüksəkgərginlikli yeni elektrik veriliş xətti çəkilir və işlər yekunlaşmaq üzrədir.

Qeyd edək ki, "Azərenerji" ASC-nin ötən ilin payızından sonra "Reabilitasiya Proqramı" çərçivəsində "Cənub" elektrik stansiyasının qazanlarında, turbinlərində və başqa avadanlıqlarda həyata keçirdiyi təmir-sazlama işləri nəticəsində stansiyanın gücü 520 MVt-dan 720 MVt-ya qaldırılıb və bununla da 200 MVt itirilmiş güc bərpa olunub.

**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# AÇG və "Şahdəniz" üzrə gəlirlərin məbləği açıqlanıb

Dövlət Neft Fondunun İctimaiyyətlə əlaqələr departamenti Xəzərin Azərbaycan sektorundakı AÇG və "Şahdəniz" yataqları üzrə cari ilin aprel ayının 1-dək əldə olunan ümumi gəlirlər barədə məlumat verib. Hesabata əsasən, bu məbləğ (2001-ci ildən etibarən) 140 450 mln. ABŞ dolları təşkil etmişdir.

O cümlədən, AÇG yatağından 1-ci rüb ərzində 2 243 mln. ABŞ dolları məbləğində gəlir götürülmüşdür.

"Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlərin həcmi müvafiq dövrdə 91 mln. ABŞ dolları olmuşdur.

Həmin yataq üzrə qazın satışından isə ümumilikdə (2007-ci ildən etibarən) 2506 mln. ABŞ dolları həcmində gəlir götürülmüşdür.

**"Respublika".**

# GÖRKƏMLİ ELM XADİMİ



**Hüseyn Məmmədrəsul oğlu Hüseynov Azərbaycan tarixində qalan, xalqına şərəflə xidmət edən şəxsiyyətlərdən biridir. O, 1909-cu ildə aprel ayının 28-də Azərbaycanın füsunkar guşələrindən birində - Quba şəhərində anadan olmuşdur.**

H.Hüseynov 1925-ci ildə Qubada orta məktəbin birinci pilləsini bitirdikdən sonra Bakı Pedaqoji Texnikumuna (seminariyaya) daxil olur və 1928-ci ilə qədər burada təhsil alır. Qeyd etmək lazımdır ki, o illərdə tələbələrin yaşayışı, təhsili, geyimi və qidalanması dövlət hesabına təmin olunurdu. Pedaqoji texnikumu bitirdikdən sonra 2 il-1930-cu ilin sentyabr ayına qədər əvvəlcə Xaçmaz stansiyasında yeddillik məktəbdə müəllim, sonra isə Quba şəhərində dairə xalq təhsili şöbəsində təlimatçı işləyir.

Atası Məmmədrəsul kişidən torpağa, təbiətə məhəbbət görən Hüseyn müəllim 1930-1935-ci illərdə təhsilini Moskvanın Yer Quruluşu İnstitutunda davam etdirir. Torpaqların suvarılması fakültəsini fərqlənmə diplomu ilə bitirən H.Hüseynov SSRİ Əkinçilik (Torpaq) Nazirliyinin sərəncamı ilə elmi fəaliyyətlə məşğul olmaq üçün Moskva şəhərindəki Ümumittifaq Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutuna göndərilir. O, burada əvvəlcə pambıqçılıq zonasının suvarılması şöbəsində kiçik elmi işçi, baş elmi işçi, 1949-cı ildən isə 1956-cı ilin axırınadək Kür-Araz düzənliyinin suvarılması sektorunun müdiri vəzifələrində işləmişdir.

Moskvada işlədiyi zaman (1935-1956-cı illər) H.Hüseynov öz tədqiqatlarını o vaxtlar keçmiş SSRİ məkanında suvarma əkinçiliyi və meliorasiya sahəsində ən tanınmış simalardan olan Ümumittifaq Kənd Təsərrüfatı Akademiyasının akademikləri A.N. Kostyakov və İ.A.Şarovun rəhbərliyi altında aparmışdır. Onun bir alim və şəxsiyyət kimi formalaşmasında onların böyük xidmətləri olmuşdur.

H.Hüseynov 1935-1941-ci illərdə elmi-tədqiqatlarını Türkmənistanın Murqab hövzəsində aparmış, əsas etibarilə pambıqçılıq təsərrüfatlarında kənd təsərrüfatı bitkilərinin suvarma rejimlərinin və şırımlarla suvarma texnikasının əsas elementlərinin öyrənilməsi və tətbiqi, təsərrüfatdaxili suvarma sisteminin yenidən qurulması məsələlərinə həsr etmişdir. Aparılan araşdırmalar göstərmişdir ki, pambıq əkinlərində yüksək məhsul almaq üçün aqrotexniki tədbirlərlə yanaşı, sudan istifadənin təşkili və əkinlərdə suvarmanın cərgələrarası becərmə ilə əlaqələndirilməsi böyük rol oynayır. Türkmənistanda suvarma işlərinin təkmilləşdirilməsi üzrə aparılan tədqiqat işləri, akademik A.N.Kostyakovun sözlərinə görə, Sovetlər ölkəsində yeni suvarma sisteminin işlənib hazırlanmasının əsasını qoydu.

H.Hüseynovun Moskvadan sonrakı fəaliyyəti Azərbaycanla bağlıdır. O, həmin illərdə suvarma sistemlərində təsərrüfat hesabının tətbiqi, meliorasiya olunmuş torpaqlarda kənd təsərrüfatı bitkilərinin (pambıq, taxıl, yem bitkiləri) yağışyağdırma və öz axını ilə suvarılmasının səmərəliliyi, yeni suvarma sistemləri tətbiq olunan ərazilərdə pambığın suvarılmasının və cərgəarası becərilməsinin təşkili məsələlərini tədqiq etmişdir.

Azərbaycanda aparılan elmi işləri daha da genişləndirmək və səmərəsini artırmaq, eyni zamanda ilk addımlarını atan Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunun rəhbərliyinin dəvəti ilə H.Hüseynov 1956-cı ilin axırından Bakıya köçür və həyatının axırına qədər bu elm məbədində fəaliyyət göstərir. O, 1957-1980-ci illərdə suvarma şöbəsinə rəhbərlik edir və Azərbaycanda kənd təsərrüfatı bitkilərinin suvarılması ilə bağlı bütün tədqiqat işlərinə elmi və metodik köməyini əsirgəmir. Onun rəhbərliyi, eləcə də çoxsaylı tələbələrinin və həmkarlarının işləri ilə Azərbaycanın müxtəlif torpaq-iqlim xüsusiyyətlərinə malik ayrı-ayrı bölgələrində əsas kənd təsərrüfatı bitkilərinin su tələbatı və suvarma rejimləri, yeni mütərəqqi suvarma üsullarının və texnikasının rayonlaşdırılması və digər problemlər tədqiq olunmuş və nəticələri istifadə olunmaq üçün aidiyyəti üzrə su və kənd təsərrüfatı təşkilatlarına təqdim edilmişdir.

Deyilənlərlə yanaşı, professor H.Hüseynov tərəfindən işlənib hazırlanmış bir çox elmi tövsiyələr Azərbaycanın suvarma əkinçiliyində öz tətbiqini tapmışdır. Bunlardan daimi kart suvarma kanallarının müvəqqətiləri ilə əvəz olunması, pambıq bitkisinin suvarma rejimlərinin və şırımlarla suvarma texnikasının, sahələrə böyük sərflə (saniyədə 120-150 litr) su axını verməklə aparılmasının təşkilatı və tətbiqi, suvarmanın səyyar su boruları tətbiq etməklə və uzun şırımlarla suvarılması, nəmlənmə dərinliyinin şırımların uzununa nizamlanması, intensiv texnologiyalar tətbiq etməklə bir sahədən ildə 2-3 dəfə məhsul alınması, bitkilərin su, qida, duz, hava rejimlərinin kompleks şəkildə nizamlamaqla yüksək məhsul alınması texnologiyası və sair təklifləri göstərmək olar.

Professor H.Hüseynovun və onun tələbələrinin tədqiqatları, elmi tövsiyələri Azərbaycanın suvarma əkinçiliyində, meliorativ sistemləri layihələndirilməsində, tikintisində və istismarında geniş tətbiq olunmuş, hazırda da öz aktuallığını itirməmişdir.

Gənc yaşlarından elmi fəaliyyətə başlayan Hüseyn müəllim 1939-1941-ci illərdə akademik A.N.Kostyakovun rəhbərliyi ilə Ümumittifaq Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda aspiranturasında oxumuş, ancaq Böyük Vətən müharibəsinin başlanması onun dissertasiya işini müdafiə etməsinə imkan verməmişdir. Faşist Almaniyasının hücumunun birinci günü—1941-ci il 22 iyunda H.Hüseynov cəbhəyə səfərbər olunur və Ukraynada vuruşan Cənub-Qərb cəbhəsinə göndərilir.

1945-ci ildə ordudan tərxis olunduqdan sonra yenidən instituta qayıdan H.Hüseynov "Düzgün dövri əkin tətbiq olunan pambıqçılıq sovxozlarında suvarma şəbəkəsinin yenidən qurulması metodikası" mövzusundakı dissertasiya işini başa çatdırır və 1946-cı ilin fevral ayında Moskva Hidromeliorativ İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyasını müdafiə edir. Azərbaycanda aparılan elmi-tədqiqatların ümumiləşdirən H.Hüseynov 1969-cu ildə Novoçerkassk Mühəndis-Meliorativ İnstitutunun Elmi Şurasında "Azərbaycanda suvarılan torpaqların səmərəsinin artırılması, kənd təsərrüfatı bitkilərinin suvarma üsulları və texnikasının yaxşılaşdırılması yolları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir. Ümumittifaq Attestasiya Komissiyası 1972-ci ildə H.Hüseynova "Meliorasiya və suvarma əkinçiliyi" ixtisası üzrə professor rütbəsi verir. Elmi-tədqiqatlar və kadr hazırlığı sahəsində qazandığı nailiyyətlərə görə Azərbaycanın Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə 1976-cı ilin fevralın 2-də H.Hüseynova "Azərbaycan SSR-nin Əməkdar elm xadimi" fəxri adı verilir.

Böyük nüfuz, erudisiya və mədəniyyət sahibi olan H.Hüseynov bir çox mötəbər elmi-texniki cəmiyyətin üzvü idi. O, dəfələrlə SSRİ və Azərbaycanın Meliorasiya və Su Təsərrüfatı Nazirliklərinin Elmi-Texniki şuralarının, Ümumittifaq Kənd Təsərrüfatı Akademiyasının suvarma bölməsinin və digər şuraların üzvü seçilmiş, respublikadan kənarda elmimizi layiqincə təmsil etmişdir.

O, öz üzərində daima işləyən, özünə və həmkarlarına qarşı çox tələbkar, lakin çox da ədalətli bir insan idi. H.Hüseynov, eyni zamanda, gözəl elmi rəhbər, müəllim, hami idi. Onun rəhbərliyi altında 16 nəfər namizədlik, bir nəfər isə doktorluq dissertasiyası müdafiə etmişdir. Onun dəstəyinə ehtiyacı olan, ona müraciət edən başqa həmkarlarına da Hüseyn müəllim öz köməyini əsirgəməzdi. O, öz yetişdirmələrinə atalıq qayğısı göstərirdi. Böyük nüfuz və hörmət sahibi olan H.Hüseynovun sözü keçmiş SSRİ məkanının hər yerində keçərli idi.

Görkəmli alim 280 elmi əsərin müəllifi idi. Onun əsərləri 120 çap vərəqi həcmində kitab, monoqrafiya, metodik vəsait, broşür və məqalə kimi çap olunmuşdur. H.Hüseynovun vətən qarşısındakı xidmətləri öz layiqli qiymətini almışdır. Belə ki, Böyük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə o, "II dərəcəli Vətən müharibəsi" ordeni və 7 medalla, əmək cəbhəsindəki səmərəli fəaliyyətinə görə "Şərəf nişanı" ordeni və digər medallarla, o cümlədən Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bir qızıl, üç gümüş, üç bürünc medalı ilə təltif olunmuşdur.

Professor H.Hüseynov 1989-cu ildə may ayının 3-də, ömrünün 81-ci baharında dünyasını dəyişmişdir. O, elə zəngin elmi-praktiki irs qoyub getmişdir ki, bu irs bu vaxta qədər də öz aktuallığını itirməmişdir. Hazırda da bir çox alimlər H.Hüseynov irsinə müraciət edir və onun elmi işlərindən bəhrələnirlər. Onunla birgə işləyən, təmasda olan hər bir insan H.Hüseynovu xoş xatirələrlə yada salır.

**Ağamir HƏŞİMOV,**
**aqrar elmləri doktoru, professor.**
**Nadir NADİROV,**
**aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent.**

# Ölkə başçısı ilə görüş sənət adamlarını daha yaxşı işləməyə ruhlandırır

**"Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır. Bax, biz o dövlətlərdənik..."**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Tarixə nəzər salsaq görərik ki, böyük cəmiyyətlər yüksək dəyərlərə malik cəmiyyətlərdir. Güclü dəyərlərə malik olan cəmiyyətlər isə sarsılmazdır. Bu da bir həqiqətdir ki, cəmiyyətdə milli və mənəvi dəyərlərin bərqərar olmasında xalqa yol göstərən, onu tarixin təlatümlü sınaqlarından çıxaran liderin rolu əvəzsizdir. Bu liderlər yaxşı dərk ediblər ki, cəmiyyətin həmrəyliyini və möhkəmliyini təmin edən əsas amil məhz milli mənəvi dəyərlərdir. Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyev də belə liderlərdəndir. O, deyirdi: "Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda, xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk".*

*Bu il mart ayının 1-də Azərbaycan mədəniyyətinin tanınmış nümayəndələri ilə ölkə başçısının keçirdiyi görüş də məhz buna: milli mədəniyyətimizin və milli mənəvi dəyərlərimizin qorunmasına, inkişafına xidmət edir. Bu görüş, həmçinin bu sahədə çalışanların qarşısında yeni perspektivlər açır. Onu da deyək ki, sənət adamları bu görüşə böyük dəyər verir, mədəniyyətimizin qorunması istiqamətində atılan mühüm addım sayır.*

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti estrada kafedrasının baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru,* ***respublikanın Əməkdar artisti Nüşabə Ələsgərli*** *də bizimlə söhbətində fikirlərini bölüşərək belə demişdir:*

Hər bir xalqın, millətin varlığını təsdiq edən amillər var. Mədəniyyət də belə amillərdən biridir. Azərbaycan dövləti mədəniyyətimizin inkişafını daim diqqətdə saxlamış, bu istiqamətdə böyük işlər görülmüşdür. Ulu öndər respublikaya rəhbərliyinin bütün dövrlərində bu ənənəyə sadiq qalmış, Azərbaycan mədəniyyətinin dünya miqyasında tanıdılması üçün böyük layihələr həyata keçirmişdir. O, mədəniyyət işçilərinə, sənət adamlarına yüksək dəyər verir, onlarla müxtəlif tədbirlərdə görüşür, problemləri ilə maraqlanır, diqqət və qayğı göstərirdi.

Təəssüf ki, müstəqilliyimizin ilk illərində digər sahələr kimi, mədəniyyətimizə də xor baxıldı, ögey münasibət bəslənildi.

Mənim tələbəlik, gənclik illərim də o dövrə təsadüf edib. 1990-cı ilin may ayında Azərbaycan Dövlət Konservatoriyasını bitirib, Azərbaycan Dövlət Filarmoniyasında yeni işə başlamışdım. Açığını deyim, adamın əli heç işə yatmırdı. Əvvəla, 90-cı il hadisələrinin şokundan hələ də çıxa bilməmişdik, üstəlik cəbhə bölgələrindən gətirilən şəhid cənazələrinin ardı-arası kəsilmirdi. Demək olar ki, hər gün 11-12 radələrində məşqləri saxlayır, flarmoniyanın qarşısı ilə Şəhidlər Xiyabanına böyük xalq kütləsinin müşayiəti ilə son mənzilə yola salınan şəhidlərimizin ruhuna dualar oxuyur, uzun müddət özümüzə gələ bilmirdik. Nə yaxşı ki, xalqımızın xilaskarı Heydər Əliyev hakimiyyətə gəldi. 1994-cü ildə atəşkəslə bağlı sənəd imzalaması ilə şəhid axınının qarşısı alındı, ana və bacıların axan göz yaşları dayandı, həyat yavaş-yavaş öz axarına düşdü. Ölkədə sabitlik hökm sürməyə başladı, əmin-amanlıq yarandı.

2003-cü ildə Prezident seçilən İlham Əliyev hakimiyyətə gəldiyi gündən digər sahələr kimi, mədəniyyət sahəsinə də qayğı ilə yanaşdı. Təsadüfi deyildir ki, Prezidentin ilk qərarlarından biri Azərbaycan klassiklərinin əsərlərinin latın qrafikası ilə çap edilməsi ilə bağlı oldu. 2004-cü ildə qəbul olunan qərardan sonra, o vaxt o qədər də maddi imkanlarımız olmasa da, qısa müddətdə böyük işlər görüldü. Nəinki Azərbaycan klassiklərinin, dünya ədəbiyyatı klassiklərinin də kitabları latın qrafikası ilə çap olundu.

Mədəniyyətimizin digər sahələri də dövlət qayğısı ilə əhatə edilib. Milli Dram Teatrı, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Taetrı, Musiqili Teatr əsaslı təmir olunub, bölgələrdə taetrlar tikilib, yaxud əsaslı təmir edilib, yeni teatrlar yaradılıb. Bakı şəhərindəki muzeylərimiz də təmir edilib. Müasir İncəsənət Muzeyi yaradılıb. Görkəmli mədəniyyət xadimlərinin xatirəsi əbədiləşdirilib. Bu il mart ayının 1-də bir qrup sənət adamları ilə görüşən dövlət başçısı görülən işlərdən danışarkən demişdir: "Xalq qarşısında, dövlət qarşısında xidmətlər göstərmiş, xalqın sevgisini qazanmış mədəniyyət xadimləri dövlət tərəfindən mütləq dəstəklənməlidir. Bu görüşün məqsədlərindən biri də məhz ondan ibarətdir ki, mən sizdən təkliflər eşidim və bu təkliflər nəticəsində biz düzgün qərar qəbul edək".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da iştirak etdiyi bu görüş mədəniyyətimizə dövlət qayğısının təsdiqi idi və zərurətdən yaranmışdı. "Bu gün Azərbaycan mədəniyyətinin inkişafı ilə bağlı sizinlə danışmaq istərdim. Mənim ölkəmizin görkəmli mədəniyyət xadimləri ilə bir çox görüşlərim olub, həm fərdi qaydada, həm müxtəlif tədbirlərdə, mərasimlərdə, mədəniyyət ocaqlarının açılışlarında. Bu gün isə biz daha geniş formatda görüşürük. Hesab edirəm ki, buna ehtiyac var" - deyən ölkə başçısı sənət adamlarının çıxışlarını dinlədi. Bəzi məsələlər müzakirə olundu, təkliflər edildi. Çıxış edənlər birmənalı şəkildə qeyd etdilər ki, Heydər Əliyev Fondunun müxtəlif sahələrdə həyata keçirdiyi layihələr artıq beynəlxalq nüfuz qazanıb. Azərbaycanın dünya birliyində zəngin mədəniyyətə, qədim tarixə, tolerantlıq ənənələrinə malik bir dövlət kimi özünəməxsus yer tutması baxımından bu nüfuz böyük rol oynayır.

Bəli, bu, həqiqətən, belədir. Yüksək dəyərləri öz şəxsiyyətində birləşdirən Mehriban xanım Əliyeva, sözün əsl mənasında, milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Onun rəhbərliyi altında beynəlxalq əməkdaşlıq şəraitində reallaşdırılan irimiqyaslı layihələr cəmiyyətin inkişafında, qədim və zəngin mədəniyyətimizin, milli dəyərlərimizin qorunmasında mühüm rol oynayaraq, eyni zamanda, azərbaycançılıq ideologiyasının yaşamasına da xidmət göstərir. Azərbay-



can mədəniyyətinin nadir incisi sayılan muğamlarımızın inkişaf və təbliği birbaşa Heydər Əliyev Fondunun və Mehriban xanım Əliyevanın adı ilə bağlıdır.

Azərbaycan qadınlarının bütün gözəl keyfiyyətlərini özünün təkrarsız şəxsiyyətində birləşdirən ölkənin birinci xanımının cəmiyyətdə yaratdığı aura insanları mənəvi saflığa, xeyirxahlığa səsləyir.

Bu gün Azərbaycanın iqtisadi gücü, beynəlxalq nüfuzu getdikcə artır ki, bu da cəmiyyətimizin, inkişafına təsirsiz qalmır, gənc nəslin tərbiyəsini bir daha ön plana çəkir. Mədəniyyət xadimləri ilə keçirilən unudulmaz görüşdə yekun çıxışında cənab Prezidentin dediyi kimi: "Bizim gənc nəslimiz milli ruhda tərbiyə olunmalıdır. Ancaq bu halda Azərbaycan əbədi müstəqillik yolu ilə gedə bilər. Buna nail olmaq üçün, əlbəttə ki, əsas amil bizim mədəniyyətimizdir, incəsənətimizdir, ədəbiyyatımızdır, ana dilimizdir, milli təfəkkürümüzdür". Düşünürəm ki, bu adi deyil, konsepsiya xarakterli sözlərdir və mədəniyyət sahəsində çalışan hər bir kəsin məsuliyyətini bir az da artırır, daha yaxşı işləməyə ruhlandırır. Biz bundan sonra Azərbaycan mədəniyyətinin inkişafına daha çox töhfələr verməliyik!..

Təbii ki, Azərbaycan mədəniyyətinin inkişafı ilə bağlı dövlətimizin gördüyü işləri bir qəzet yazısında bütünlüklə əhatə etmək qeyri-mümkündür. Yalnız onu deyə bilərəm ki, mədəniyyətimizin inkişafında mənim də azacıq da olsa, payım var və bu, dövlətimiz tərəfindən qiymətləndirilib. Hər bir Azərbaycan vətəndaşı, xüsusən də sənət adamları üçün yaradılan şəraitə, göstərilən qayğıya görə ulu öndərimiz Heydər Əliyevə və onun layiqli davamçısı Prezidet İlham Əliyevə minnətdarıq.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

# "Jara" beynəlxalq festivalı Dubayda böyük uğurla keçib

***Festivalın təşkilatçıları qismində "Jara TV" əyləncə telekanalı və BERIN IGLESIAS ART beynəlxalq tədbirlər holdinqi çıxış ediblər***





**"Jara" Beynəlxalq Musiqi Festivalı 2016-cı ildən keçirilməyə başlayıb, lakin ilk dəfə bu tədbir MDB hüdudlarından kənarda təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, mayın 3-də Dubayın ən dəbdəbəli otellərindən birində - "Rixos Premium Dubai"da Rusiya estrada səhnəsinin ən parlaq nümayəndələri Qriqori Leps, EMIN, Leonid Aqutin, Valeriya, Yeqor Krid, Jasmin, Aleksandr Panayotov, İvanuşki İnternational, Artik&Asti, Vremya i Steklo, MARUV, Olqa Buzova, Albina Canabayeva, Slava, Rodriguezzz, Rita Dakota və başqaları sıxış ediblər.

Fars körfəzinin sahilindəki "Jumeirah Beach Residence"də nəhəng səhnə quraşdırılıb. Festivala hazırlıq çərçivəsində 3 ton səhnə avadanlığı, 300 kilovat işıq və səs aparatları xüsusi olaraq Dubaya gətirilib. Burada 3 mindən çox tamaşaçı açıq havada 5 saatdan çox davam edən möhtəşəm konserti dinləyib. Bu, Ərəb Əmirliklərində görülməmiş bir şou olub! "Jara" Rusiya musiqisi həvəskarlarını Dubayda bir araya gətirib, çimərlikdən tamaşaçı zalına axışan bütün qonaqlar rəqs edərək sevimli artistləri ilə birlikdə zümzümə ediblər.

"Jara" festivalının təşkilatçılarından biri, musiqiçi və biznesmen EMIN deyib: "Bizim "Jara" festivalı perspektivli layihədir və ən çox maraq görən tədbirlərdəndir. Ona görə də çox sevinirəm ki, onun qastrolları üçün ilk seçilən yer məhz bütün qabaqcıl tendensiyalara cavab verən Dubay şəhəri oldu. Mayın 3-də ən populyar artistlərin çıxış etdikləri çox parlaq musiqi şousu oldu. Bizim bu qədər tamaşaçını bir axşamda toplamağımız çox əladır. Ona görə də növbəti ildə bir deyil, bir neçə festival günlərinin keçirilməsi barədə düşünəcəyik".

BERIN IGLESIAS ART beynəlxalq tədbirlər holdinqinin prezidenti Maksim Berin bildirib: "Bu, bizim üçün böyük hadisədir, çünki ilk dəfə Dubayda reallaşdırdığımız "Jara" möhtəşəm tədbirdir. Bundan əvvəl Dubayda keçirilmiş konsert tədbirlərinin heç biri nə top ulduzların sayına, nə də ümumi coşqunluğuna görə onunla müqayisə edilə bilməz. Festival o dərəcədə uğurlu alındı ki, Dubaydakı bir sıra yüksəksəviyyəli konsert meydançaları bizimlə əməkdaşlıq etmək istədiklərini bildirdilər. Biz Dubayda bu cür uğurla start götürən "Jara"nın Rusiya pop-səhnəsinin ən istedadlı, aktual və maraqlı artistlərini, habelə onların çoxsaylı pərəstişkarlarını bir araya gətirən illik ənənəvi festivala çevrilməsini planlaşdırırıq.

"Rixos Premium Dubai" və "Jara" festivalı bütün qonaqlara unudulmaz istirahət və parlaq emosiyalar bəxş ediblər! Axşamın aparıcıları Albina Canabayeva və Timur Rodriqez, həmçinin Yuliya Baranovskaya və Konstantin Tarasyuk konsertə bayram ab-havası və musiqi vəhdəti ovqatı əlavə ediblər.

Xatırladaq ki, "Jara" festivalı iyulun 25-dən 28-dək Bakıda - Xəzər dənizinin sahilində keçiriləcək.

**AZƏRTAC**

# Qobu Qəsəbə Uşaq İncəsənət Məktəbi



**Abşeron rayonunun Qobu qəsəbə uşaq incəsənət məktəbi 1987-ci ildən Xırdalan şəhər uşaq musiqi məktəbinin filialı kimi fəaliyyətə başlamış, 1990-cı ildən müstəqil Qobu qəsəbə uşaq musiqi məktəbi kimi fəaliyyətini davam etdirmiş, hazırda isə incəsənət məktəbi adı ilə fəaliyyət göstərir. 2014-cü ildə məktəb müasir tələblərə cavab verən binaya köçürüldü. Bu illər ərzində şagird və müəllimlərin sayı ilbəil artmağa başlamışdır. Hazırda məktəbi bitirən məzunlardan bir neçəsi məktəbdə müxtəlif ixtisaslar üzrə müəllim vəzifəsində çalışır. Məktəbdə dörd şöbə fəaliyyət göstərir: fortepiano şöbəsi, xalq çalğı alətləri şöbəsi, nəzəriyyə şöbəsi, xoreoqrafiya şöbəsi və rəssamlıq sinfi. Xalq çalğı alətləri şöbəsinə tar, kamança, qarmon, nağara, xanəndəlik və klarnet ixtisasları aiddir. Hazırda məktəbin şagird kontingentinin sayı 190 nəfərə çatmışdır. Məktəbin direktoru ali ixtisas təhsilli və təcrübəli pedaqoq Azər Bayramov söhbət edərək bildirdi ki, 1 nəfər Azərbaycan Dövlət Milli Konservatoriyasına, 3 nəfər isə Konservatoriyanın nəzdindəki Musiqi Kollecinə daxil olmuşlar.**

Dövlətimiz tərəfindən mədəniyyət sahəsinə ayrılan diqqət və qayğı ölkəmizdə keçirilən beynəlxalq muğam müsabiqələri və festivallarda gənc nəslin musiqi zövqlərinin formalaşmasına və gələcək müsabiqələrdə şagirdlərin iştirakına şərait yaradır. Məsələn, 2016-cı ildə Xan Şuşinskinin anadan olmasının 115 illiyinə həsr olunmuş Xan Şuşinski adına III Respublika Muğam Festivalında müvəffəqiyyətlə çıxış etdiyinə görə məktəbin IV sinif şagirdi Məmmədov Seymur Elşən oğlu diplomla təltif olunmuşdur.

Onu da qeyd etmək lazımdır ki, məktəb fəaliyyət göstərdiyi illər ərzində yüzlərlə şagirdə musiqi savadı vermiş, eyni zamanda, şagirdlər rayon və qəsəbənin tədbirlərində fəal iştirak edirlər. 2017-2018-ci və 2018-2019-cu tədris illəri məktəb üçün uğurlu olmuşdur. Azər müəllim qeyd etdi ki, 03 may 2018-ci il tarixində keçirilən ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş III Respublika müsabiqəsində məktəbin tar ixtisası üzrə IV sinif şagirdi Quliyev Nihat Elşən oğlu I yerə, xanəndəlik ixtisası üzrə III sinif şagirdi Əmiraslanlı Yusif III yerə layiq görülmüşdür. Hazırda məktəbin şagirdləri cari ildə keçiriləcək IV Respublika müsabiqəsinə hazırlaşırlar. Məktəbdə gənc nəslin estetik tərbiyəsində səmərəli fəaliyyəti və uşaqlara musiqi ifaçılığının öyrədilməsi ilə ciddi məşğul olan bir sıra müəllimlər fəaliyyət göstərir. Onlardan bir neçəsi bu illər ərzində göstərdiyi xidmətlərə görə Fəxri fərmanlarla təltif olunmuşlar. 28 dekabr 2017-ci il tarixində məktəbin tar ixtisası üzrə müəllimi Məmmədov Nicat Fəxri fərmanla təltif olunmuşdur. Şagirdlərin təlim-tərbiyəsində fəaliyyətinə və musiqi ifaçılığının öyrədilməsində göstərdiyi xidmətə görə 2018-ci ildə Mənsimova Afaq Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Mehman Şükürov tərəfindən "İlin ən yaxşı müəllimi" nominasiyasının qalibi kimi fəxri fərmanla təltif olunmuşdur.



Məktəbin kollektivi televiziya verilişlərində də uğurla çıxış etmişdir. Belə ki, 20 may 2018-ci ildə Quliyev Nihat və Əmiraslanlı Yusif AzTV kanalında "Pillə" verilişində, 05 yanvar 2019-cu il tarixində isə məktəbim kollektivi "ARB Günəş" kanalında iştirak etmişdir.

Məktəbin kollektivi mütəmadi olaraq qəsəbə daxilində yerləşən məktəblərdə konsert proqramı ilə çıxış edir, müxtəlif musiqi alətlərində öz ifaları ilə, rəqs nömrələri ilə çıxış edir və həmişə rəğbətlə qarşılanırlar.

Hər il olduğu kimi, bayram və əlamətdar günlərdə məktəb müəllim və şagird kollektivi qəsəbəmizə yaxın ərazidə yerləşən hərbi hissələrdə konsert proqramı ilə çıxış edərək əsgərlərin bayramlarını təbrik edir, onları sevindirirlər. Məktəb hər ilin yekunu ilə əlaqədar hesabat konserti ilə Xırdalan şəhər Mədəniyyət Evində çıxış edir və əhalinin rəğbətini qazanır.

Məktəb Qaradağ rayonunun C.Qaryağdıoğlu adına 9 saylı uşaq musiqi məktəbi ilə sıx əməkdaşlıq edir. Mütəmadi olaraq ildə 1-2 dəfə məktəblər arasında təcrübə mübadiləsi proqramına uyğun konsertlər təşkil edir. Fərəhlə onu da qeyd etməliyik ki, məktəbin kollektivi təkcə qəsəbə, rayon tədbirlərində deyil, eyni zamanda respublika tədbirlərində, festivallarda, müsabiqələrdə də yaxından iştirak edir.

**Zabit CAVADOV,**
**"Respublika".**



